

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ekoloji terror: məhv edilən təbiət



4

SƏS

№ 109 (6792)

22 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

# Qüdrət və qətiyyət örnəyi: Azərbaycan -Türkiyə!



5

*İLHAM ƏLİYEV: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük"*

# Cənubi Qafqazda SABİTLİYƏ MANE OLMAQ NİYYƏTİ



6

## Möhtəşəm layihələrin müəllifi



3

## Fransa Afrikada diz çökdü



## Zəngəzur dəhlizinin açılması ən çox kimin işinə yarayacaq?



14

*"44 günlük Vətən müharibəsi yalnız Azərbaycan və Ermənistan arasında olan münasibətləri dövlətimizin xeyrinə həll etmədi, eyni zamanda bölgədəki...*

## Erməni saytı Paşinyanın ETİRAFINI yaydı!



7

## Medianın vicdanı varmı?



7

# AĞALI: Burada necə yaşayırsınız?..



**_2020-ci ilin sentyabr ayının 27-də başlayıb 10 noyabrda bitən İkinci Vətən müharibəsi Qarabağ və Şərqi Zəngəzurda 30 illik həsrətə son qoydu._**

90-cı illərin əvvəllərində ölkəmizə rəhbərlik edən AXC-Müsavat cütlüyünün səriştəsizliyi, tamahı və bacarıqsızlığı səbəbindən düşmənə satılan torpaqlarımızdan minlərlə sakin ermənilər tərəfindən zorla çıxarılmış, onlar uzun illər məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalmışlar. Birinci Vətən müharibəsindən sonra ölkədəki sosial-iqtisadi vəziyyətin kəskin şəkildə aşağı olduğunu nəzərə alsaq, insanların köçkünlüyün ilk illərində olmazın müsibətləri ilə qarşılaşdıqlarından günlərlə danışmaq olar.

44 günlük müharibənin sonundakı tarixi Zəfərimiz isə torpaqlarımızın azadlığı ilə yanaşı, minlərlə Azərbaycan vətəndaşının yurd həsrətinə son qoydu. Əzəli torpaqlarımız bir-birinin ardınca düşməndən azad edildikcə və bu müjdələri hər dəfə dövlətimizin başçısından aldıqca, ürəyimiz qürur hissi ilə doldu. Çünki Qarabağ və Şərqi Zəngəzurda minlərlə hektar torpaq öz sakinlərini gözlədiyi kimi, 30 il yalnız yuxularında o torpaqları gəzən, həyətini, evini, əkdiyi ağacları röyalarında yad edən minlərlə insan da öz yurduna qovuşmaq arzusu ilə yaşayırdı.

Bəli, müharibə Zəfərlə bitdi. 30 illik erməni zülmü də bitdi. Müharibədən dərhal sonra azad torpaqlarımızda bərpa işlərinə başlanıldı. Başlanıldı ki, erməni vəhşiliyi nəticəsində daşı daş üstündə qalmayan yurd yerlərimiz tezliklə yurddaşlarının orada yaşaya biləcəyi vəziyyətə gətirilsin.

İyunun 17-də dövlətimizin başçısının ilk Qayıdışın başlandığı kənddə-Ağalıda olması, sakinlərlə görüşməsi və onlara "Burada necə yaşayırsınız?" sualı ilə yenidən qürur duyduq. Çünki torpaqları azad etmək, yurddaşlarının orada yaşamasına şərait yaratmaq qədər qürurlu başqa bir hiss yoxdur.

### Ötən ilin 19 iyulu

2022-ci ilin 19 iyulunda işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə start verildi. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk qədəmləri kimi tarixin səhifələrinə həkk olundu. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçrülüməsinin birinci mərhələsinə həsr edilmiş tədbir Abşeron rayonunun Masazır kəndi ərazisində məcburi köçkünlər üçün salınmış yaşayış kompleksində keçirildi. Məcburi köçkünlərin ilk qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyindən" Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salındı. Elə ilk Qayıdış qürurunu da artıq bir ilə yaxın dövrü əhatə edən həmin gün-iyulun 19-da yaşadıq.

Yeni Ağalı kəndinə dörd mərhələdə 41 ailə köçürüləcəyi nəzərdə tutulmuşdu. İlk köçürülmədə 10 ailə yola salınırdı.

2023-cü ilin 28 fevralında Ağalı kəndinə 50 nəfərdən ibarət daha 10 ailə köçürüldü. Martın 3-də, ikinci mərhələdə isə 44 nəfərdən ibarət növbəti 10 ailə köçürüldü. Bu ailələr əsasən Bakıda yarımçıq tikililərdə, ağır şəraitdə yataqxanada yaşayan sakinlər idi ki, onlar həm doğma yurdlarında, həm də yeni tikilmiş müasir evlərdə yaşamağa başladılar. "Ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə ümumilikdə, bu günə kimi "Böyük Qayıdış" layihəsi çərçivəsində 86 ailə, 420 nəfər köçürülüb.

### Ağalılar üçün hərtərəfli şərait yaradılıb

"Ağıllı kənd" layihəsi yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri kimi komponentlər üzrə icra edilib. Ərazidə evlər, qeyri-yaşayış binaları, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. Kəndin enerjiyə olan tələbatı alternativ enerji mənbələrindən əldə olunur.

Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri təsis olunub. Məqsəd kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışını təmin etməkdir. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstərilir. Vətəndaş birbaşa videobağlantı ilə DOST mərkəzlərinin sosial agentinə müraciət edir və müraciəti yerindəcə həll olunur. "Ağıllı kənd" əhalisinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə, o cümlədən dövlət xidmətlərinə rahat çıxışı var.

Kənddə tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi) də tikilib. Burada aptek, mağaza, kafe, mobil operator xidməti də fəaliyyət göstərir. Kənddə yaradılan "ağıllı kənd təsərrüfatı" idarəetmə sistemində ən müasir texnoloji yeniliklər tətbiq olunub.

Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışırlar. Köçürülmüş əhali üçün bütün infrastruktur yaradılıb.

### Burada necə yaşayırsınız?..

Torpaqlarımızı 30 illik erməni əsarətindən xilas edən Milli Ordumuzun Müzəffər Sərkərdəsi, dövlətimizin başçısı cənab İlham







Əliyevin iyunun 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə birlikdə Zəngilan rayonunun Ağalı kəndində olması sözlə ifadə edilə bilməyəcək hisslər yaşatdı bizlərə. Burada sakinlərlə görüşü zamanı ölkə rəhbərinin "Burada necə yaşayırsınız?" sualını verməsi ilə 2020-ci ilin 44 günlük odlu-alovlu müharibə dövrünə qayıtdıq. İlk günlərində hələ nəticələrin nə olacağını bilmədiyimiz, lakin bütövlükdə xalqın ayağa qalxdığı, dövlət başçısının ətrafında sıx birləşdiyi həmin dövrə qayıtdıq. Həmrəyliyin ən yüksək səviyyəsi, vətənpərvərliyin ən bariz nümunəsi olan həmin 44 günə...

Sən demə həmin 44 günün hər anı qələbə xəbərləri ilə tarixin səhifələrinə yazılacaqdı. Sən demə həmin 44 gün Azərbaycan xalqının əzmini, nəyə qadir olduğunu, Vətəni, torpağı, ərazi bütövlüyü uğrunda canından keçməyə hazır olduğunu dünyaya bəyan edəcəkdi. Sən demə həmin 44 gün 90-cı illərdə ölkəmizdə özbaşınalıq nəticəsində buraxılan səhvləri düzəldən an olacaqdı. "Dəmir yumruq" ətrafında birləşən minlərlə vətənpərvər insanın bir həmləsi ilə düşmənin məhvi olacaqdı.

44 günün hər anı qələbələrlə Böyük Zəfərə yaxınlaşdıq və Zəfər çaldıq. Dövlət başçısının ətrafında sıx birləşməyimiz dövlət-xalq iradəsinin gücü ilə torpaqlarımızdan 30 ilin hicranını qovub çıxardı, ona vüsal bəxş etdi. Lap yaxınlarda sakinləri ilə qovuşacağı vüsalı...

Beləliklə, azad torpaqlarımız onun xilası üçün 20 il ərzində yorulmadan fəaliyyət göstərən, yollar axtaran dövlətimizin başçısının göstərişi ilə dərhal bərpa edilməyə başlandı. Yurddaşlarının Qayıdışı üçün hazırlandı. Və Böyük Qayıdış ötən ildən başlandı. Hazırda davam edir və artıq Qarabağ və Şərqi Zəngəzur mərhələ-mərhələ sakinlərinə qovuşur.

Ağalı kənd sakinləri ilə dövlətimizin başçısının görüşü 44 günü xəyalımızda canlandırdıqca, qürur duyduq. Müzəffər sərkərdənin xalqının nümayəndələrinə əvvəl torpaqlarını, sonra yurd yerlərini bəxş etməsi, daha sonra onları elə yurdlarında ziyarət etməsi, yaşayış şəraitləri ilə maraqlanması onun müharibədən sonra söylədiyi "Bütün şəhər, qəsəbə və kəndlər yenidən qurulacaq, bərpa olunacaq. Bütün sakinlər öz ata-baba yurdlarına qayıdacaqlar" kimi dəyərli fikirlərinin təsdiqi olaraq qürur hissi yaşatdı.

Prezident İlham Əliyevin "Salaməleyküm. Necəsiniz? Necə yaşayırsınız?" sualına sakinlərin "Sağ olun, cənab Prezident, Allah Sizə ömür versin. Biz yaxşıyıq, Sizin sayənizdə hər şey yaxşıdır, əladır. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə kömək etsin. Biz Sizin sayənizdə burada yaşayırıq. Allah Sizə cansağlığı versin", "Allah Sizi var eləsin. Sizinlə fəxr edirik. Bizim Prezidentimiz dünya lideridir", "İnşallah, həmişə yolunuz açıq, işiniz uğurlu olsun" cavabları ata-baba ocağına qayıdan, hərtərəfli şəraitlə təmin olunan insanların 30 ilin sonunda sevincinin, xoşbəxtliyinin təntənəsi və ümumilikdə vətəndaş məmnunluğunun ifadəsi idi.

Bütün bunlar isə bütün xalqın səadəti, qürurudur. Çünki artıq bu xaıqın nümayəndələrinə "torpaqlarınızı nə vaxt işğaldan azad edəcəksiniz?" sualını verən yoxdur. Əvəzində hələ də 2020-ci ilin 44 gününün şücaətindən söhbət açılır. Uzun illər də mövzu bu şücaət olaraq davam edəcək.

**_Mətanət Məmmədova_**

# Möhtəşəm layihələrin müəllifi



***Ulu Öndər Heydər Əliyev qadının rolunu və fəaliyyətini çox yüksək qiymətləndirərək belə deyirdi: "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir". Bəli, qadın ülvilik, ucalıq rəmzidir. Bunu əməlləri ilə, xalqa, dövlətə xidmətləri ilə sübut ediblər. İllərin, qərinələrin, əsrlərin sınağında bu özünü göstərib. Bu gün Azərbaycan qadınının əzəmətini bütün dünyada tanıdan Azərbaycan Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fəaliyyəti ilə xeyriyyəçilik və humanist layihələrinə imza ataraq Azərbaycan qadını və Anası, Böyük İnsan, İctimai Xadim kimi xoş niyyətli əməlləri ilə böyük nüfuza sahib olduğunu təsdiqləyib. Yorulmaz fəaliyyət, daxilindən gələn hökm – vətənə xidmət hökmü onu bu yüksəkliyə qaldıra bilib.***





Azərbaycan cəmiyyətinin yaratdığı hüquqi normalardan yararlanan və bu prinsiplər əsasında dünyaya qapı açan Mehriban xanım Əliyeva ictimai-siyasi, mədəni, sosial proseslərdə fədakarlıq nümunəsini göstərir. Sözsüz ki, Onun prinsipiallığı, qətiyyəti yaşadığı mühit - ocaq və ailə ilə bağlıdır. Xeyir əməllər sahibi kimi 1995-ci ildə yaradılan Azərbaycan Mədəniyyətinin Dostları Fondu Mehriban xanımın Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiya olunması, yeni beynəlxalq əlaqələrin yaradılması baxımından həyata keçirdiyi ideyaları özündə cəmləşdirir. Maarifçilik ideyaları ilə çıxış edən daha geniş bir aspektdə humanizm prinsiplərini gerçəkləşdirməyə çalışan Mehriban xanım Əliyeva Azərbaycanda mövcud olan sosial məsələlərin həlli yönümündə öz bacarıq və iradəsini ortaya qoyaraq, daha geniş şəkildə fəaliyyət göstərdi. Ulu Öndər Heydər Əliyev ideologiyasını davam etdirmək və prinsipləri gerçəkləşdirmək üçün Heydər Əliyev Fondunun yaradılması Onun çoxsaylı layihələrinə imza atdı. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramına uyğun olaraq Azərbaycanın bir sıra rayon və kəndlərində yeni məktəb binalarının inşa, təmir və bərpa olunaraq istifadəyə verilməsi bu görülən işlərin davamı olaraq reallaşır. Belə ki, məktəblər müasir avadanlıqlarla təchiz edilərək, dünya standartlarına uyğun qurulur ki, bu da təhsilin keyfiyyətinə müsbət təsirini göstərməkdədir.

## Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir

Çoxşaxəli fəaliyyət və reallaşan əməllər Mehriban Əliyevanın ismini qarşısına ən gözəl məfhumları həkk edib. Düzgün qərar qəbul etmək bacarığı ilə heyrət doğuran Mehriban xanım Əliyeva tariximizə parlaq səhifələr yazıb.

Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik və insanpərvərlik nümunəsinə çevrilən Birinci Xanımın ölkəmizin ictimai-siyasi və mədəni həyatında rolu və əməyi danılmazdır. Qeyd edək ki, Milli Məclisin deputatı olduğu zaman məsafəsində Mehriban xanım Əliyevanın imzası ilə Milli Məclisə təqdim edilmiş amnistiya təşəbbüsləri də cəmiyyətimizdə geniş rezonans doğurmuş və Mehriban xanımın humanizm prinsiplərinə sadiqliyini təsdiq etmiş oldu. Onun təşəbbüsü ilə hazırlanmış Amnistiya Aktları 2007, 2009, 2013 və 2016-cı illərdə Milli Məclis tərəfindən qəbul olunmuş, nəticədə, ümumilikdə, 30 mindən çox məhkum müxtəlif növ cəzalardan azad edilmişdir. "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti, məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir", - deyir Mehriban xanım Əliyeva.

## Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək

Azərbaycanın qadın hərəkatında güclü dövlət, ədalətli cəmiyyət və azad qadın anlayışı bir-birinə möhkəm tellərlə bağlanaraq, sosial-mədəni inkişafımızın aparıcı qüvvəsinə çevrilir.Mehriban xanım Əliyeva Azərbaycan qadını obrazını, artıq dünyada yarada bilib. Dünyanın ən nüfuzlu mükafatlarının daşıyıcısı olan Mehriban xanım Əliyeva gördüyü şərəfli işlərin müqabilində bu nüfuza malikdir.

*Ardı Səh. 3*

# Möhtəşəm layihələrin müəllifi











Əvvəli-Səh-3

Belə bir missiyanı üzərinə götürən və yorulmadan çalışan Mehriban xanımın fəaliyyət dairəsi daim diqqətdədir və hər bir azərbaycanlı bu görülən işlərdən qürur duyur, xalqın bir nümunəvi Xanımı kimi xarakterizə olunur. Belə bir ömrü yaşayan Mehriban xanım Əliyeva siyasi fəaliyyəti, həm də bir qadın və bir ana kimi həyata keçirdiyi xeyriyyəçilik əməlləri, qayğıkeşlik nümunələri diqqətdən kənarda qalmır. Son dövr hadisələrində biz bunun bir daha şahidinə çevrildik. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qarabağın tarixi şöhrətinin yenidən bərpası üçün yeni layihələr həyata keçirilir. Qarabağda keçirilən beynəlxalq tədbirlər, Şuşada Xarıbülbül festifalı və s. Mehriban Əliyevanın həyata keçirdiyi tədbirlər sırasındadır. Artıq Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə reallaşdırır. «Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!" – deyə Mehriban xanım bildirib.Səmimi hisslər, səmimi münasibət, səmimi görüşlər Mehriban xanım Əliyevanı insanlara daha da yaxınlaşdırır. Xalqın ən çətin və şad günündə onlarla fikirlərini paylaşan Mehriban Əliyevanın "Sizin Mehriban" ifadəsi onunla isti münasibətin daha da sıx olmasına səbəb olub. Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır.

### Məslək yoldaşı və silahdaş

Azərbaycan Prezidenti İlham Əliyevlə birgə Birinci vitse-prezidenti kimi işğaldan azad olunmuş ərazilərimizə səfəri gördüyü işlərin xalqa və vətənə xidmət nümunəsi olaraq bir daha təsdiqidir. Son illərin tarixi gerçəkliklərinə nəzər salsaq görərik ki, O, həqiqətən də xalqla birgə yaşayır. Vətən müharibəsi dövründə bunun bir daha şahidinə çevrildik. "Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir", - deyən Mehriban Əliyeva bildirib ki, buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik: "Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır".Mehriban xanım Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ömür-gün yoldaşı olmaqla yanaşı, onun məslək yoldaşı və silahdaşıdır. Hər zaman bərabər addımlayan ehtibarlı silahdaş. Qarabağ torpaqlarının erməni işğalından azad olunması yolunda 44 günlük müharibədə Mehriban Əliyeva hər qələbə sevincini xalq ilə birgə yaşadı. Şəhid analarının kədərini bir ana kimi yaşadı, şəhid anaların yanında oldu, onlara təsəlli verdi. Qazilərimizə mərhəmət əlini uzatdı.

Ürəyi daima şəhid analarının ürəyi ilə döyündü, onların göz yaşı onun göz yaşı oldu. O, müqəddəs Ana şəfqəti ilə qəhrəman Qazilərimizin yarasına məlhəm oldu. Nəcib əməllər sahib olan Mehriban Əliyeva ölkə həyatında baş verən hadisələrə həssaslıq və qayğı ilə, diqqətlə yanaşır. Bu, onun həm Ana kimi, həm də ictimai xadim kimi böyük ürəyinin hökmü, vəzifə məsuliyyətindən doğan iradəsi və qətiyyətidir.

*Nəzakət ƏLƏDDİNQIZI*




# Fransa Afrikada diz çökdü

***Yaxın tarixə qədər Afrika qitəsində özünü hegemon kimi aparan, soyqırımları törədən, "qara qitə"nin xalqlarına zülm edən, onlara kölə təfəkkürü ilə yanaşan Paris artıq nüfuzunu itirib, "persona non-qrata"ya çevrilib. Bunu Fransa hərbçilərinin bu yaxınlarda Çadda saxlanması, Konqo liderinin Makrona məzəmməti, avropalı diplomatlara verilən "daimi veteran səfir" adının ləğvi də sübut edir.***

Əsrlər boyu Avropanın müstəmləkə ərazisi olan Afrika hegemon gücə qarşı üsyan qaldırıb. Əlcəzair, Burkina Faso, Mali və Mərkəzi Afrika Respublikası ya Fransanı qovub, ya da cənub qitəsini tərk etməyə məcbur edib. Son nümunə kimi Çad Sudanla sərhəddə icazəsiz fəaliyyət göstərən fransız əsgərlərini həbs edib.





Onilliklər boyu Afrikanı istismar edən və regionda qeyri-sabitliyin əsas günahkarı hesab edilən Fransa qitədə persona non-qrata çevrilib. Əlcəzairdən Burkina Fasoya qədər bir çox ölkə öz ərazilərində keçmiş müstəmləkəçinin varlığını silmək qərarına gəlsə də, bu yaxınlarda Çad Sudanla sərhəddə icazəsiz hərəkət edən fransız hərbçilərini həbs edib. Sosial mediada yayılan görüntülərdə Çad əsgərlərinin beş fransız əsgərini bir-birinin ardınca oturtduğu, silah və avadanlıqlarını götürdüyü görünür. Burkina-Faso və Mali kimi bir çox Afrika ölkələrindən qovulmuş Fransaya qarşı bu cür münasibət bir daha nümayiş etdirdi ki, müstəmləkəçi dövlətin qitədəki təsirləri zəifləyir.





### Hərbçilər dindirilib

Yayımlanan videoda Çad əsgəri tərcüməçi vasitəsilə fransız əsgərlərinə "İcazə sənədiniz varmı?" sualı ilə müraciət edib. Cavab almayan Çad zabiti vəziyyəti bildirmək üçün rəhbərlərinə zəng edib. Çad hərbçilərinin telefonla danışarkən qeyd etməsi də diqqətçəkən məqam olub: "Mən bazaya icazəsiz daxil olan fransız əsgərlərini saxlayıb silahlarını götürdüm".

Rəsmi açıqlama verən Çad təhlükəsizlik mənbələri fransız əsgərlərinin icazəsiz bazaya daxil olduğunu bildirib. Fransa ordusunun sözçüsü Pierre Gaudilliere hadisənin iyunun 8-də baş verdiyini qeyd edərək, "Bu, çox aqressiv şəkildə edilib" deyib.

### Təsir itkisi dərəcəsi

Bəzi Twitter istifadəçiləri Fransa hərbçilərinin döyüşlərin getdiyi Sudanla sərhəddə görünməsini "şübhəli" adlandırıblar. İstifadəçilərdən biri onu da qeyd edib ki, əsgərlərin saxlanması Fransa ordusunun Afrika qitəsində təsir imkanlarını itirməsinə işarədir. Ötən il Bamakonun tələbi ilə Fransa iki ölkə arasında münasibətlərdə siyasi böhran fonunda 2013-cü ildə yerləşdirilmiş qoşunlarını Malidən çıxarmağa məcbur olub. Malidə 2,3 min fransız əsgəri var idi. Fransa ordusu Barkhane əməliyyatı çərçivəsində terrorla mübarizə aparmaq üçün bölgədə olub və mandat dövründə terror hücumları artıb. Fransanın Malidəki çoxsaylı çevrilişlərə görə də məsuliyyət daşıdığı güman edilir.

### MAR titulları geri götürdü

Ötən ilin dekabrında Mərkəzi Afrika Respublikası (MAR) ərazisində yerləşən Fransa ordusunun bütün hissələri bu ölkəni tərk etmək məcburiyyətində qalıb. Burada 130 fransız əsgəri xidmət edirdi. 2022-ci ilin noyabrında CAR həmin ilin avqustunda fransız diplomatlarına verilən "daimi veteran səfir" adını ləğv etdi. Bundan sonra Paris administrasiyası CAR ilə hərbi müqavilələrini dayandırıb və iki ölkə arasında gərginlik ciddi şəkildə artıb.

### Makronun Konqo liderindən məzəmməti

Emmanuel Makronun mart ayında Konqoya səfəri zamanı bu ölkənin prezidenti Feliks Tşisekedinin tənqidi ilə üzləşib. "Fransa və Avropa əməkdaşlığının formasını dəyişməlidir", - Konqo lideri bildirib. Əlavə edib ki, bizə fərqli şəkildə baxın, bizə hörmət edin, bizi əsl tərəfdaşlar kimi görün və hər zaman paternalist bir baxışla deyil. Onun "Bizə hörmət et, bizə atamız kimi baxma" sözləri Fransa liderinə soyuq duş kimi təsir etdi.

Bu ilin fevral ayında Burkina-Fasoda yerləşən və Sabir əməliyyatında iştirak edən bütün Fransa hərbçiləri ölkəni tərk etmək məcburiyyətində qalıb. Burkina Fasoda 30 sentyabr 2022-ci ildə hakimiyyətə gələn hərbi hökumət yanvarın 23-də Fransa ilə əməkdaşlıq müqaviləsini ləğv etdiyini və fransız əsgərlərinə ölkəni tərk etmələri üçün 1 ay vaxt verdiyini açıqlayıb. Saber əməliyyatı çərçivəsində Uaqduquya yerləşdirilən kontingent Fransa Xüsusi Əməliyyatlar Komandanlığının 400 əsgərindən ibarət idi.

***V.VƏLİYEV***

***P.S. Mənbə xarici mətbuatdır***

# Cənubi Qafqazda SABİTLİYƏ MANE OLMAQ NİYYƏTİ



***Ermənistanın hələ də sülh danışıqlarından yayınmaq və müxtəlif çirkin niyyətlərə, təxribatlara əl atmaq cəhdləri Cənubi Qafqazda sabitliyə təhlükə olaraq qiymətləndirilir. İşğalçı ölkənin hələ də pozuluculuğa meyilli olması diplomatik müstəvidə səylərindən də aydın şəkildə görünür. Məsələn, Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransa Silahlı Qüvvələrinin naziri Sebastyen Lekornunun dəvəti ilə nümayəndə heyətinin müşayiəti altında Fransaya getməsi bu rakursda diqqəti cəlb edir. Hazırkı Ermənistan-Fransa gündəmində işğalçı ölkəyə silah-sursat tədarükü və bununla birbaşa bağlı olaraq Fransanın İrəvandakı səfirliyinə yeni hərbi attaşe təyinatı müvafiq qənaətə gəlmək üçün əsaslı və məntiqi zəmin yaradır və sabitliyə mane olmaq niyyətini ortaya qoyur.***

Xatırladaq ki, Fransanın xarici işlər naziri Ketrin Kolonna hələ aprel ayında İrəvana səfəri zamanı Fransanın Ermənistandakı diplomatik missiyası yanında yeni hərbi attaşenin təyin olunacağını demişdi. Təsadüfi deyil ki, İrəvana Fransanın 50 zirehli transportyorunun mümkün tədarükü ilə bağlı ötən həftə Ermənistan mətbuatında xəbərlər də yer almışdı. Belə xəbərlər təkcə ötən həftə deyil, bir qədər əvvəldən də yayılmışdı, belə ki, zirehli texnikanın tədarükü ilə bağlı məlumatlar hələ mayın ortalarında da bir çox mənbələrdə yer alırdı. Hətta bunu Avropada Proqnozlaşdırma və Təhlükəsizlik İnstitutunun direktoru Emmanuel Dyupyui də öz müsahibələrinin birində təsdiqləmişdi. O, Fransanın Ermənistana 50 ədəd zirehli transportyoru tədarük edəcəyini qeyd edərək, Fransanın "Arquus" şirkətinin istehsalı olan "Bastion" və "Şerpa" zirehli maşınlarının da Ermənistan tərəfindən alınması imkanlarının müzakirə olunduğunu bildirmişdi. Yəni, bütün bunlar Ermənistanın sülh danışıqlarına, sülh prosesinə deyil, məhz silahlanmaya, məntiqi olaraq isə təxribatlara meyilli olduğunu söyləmək üçün kifayət edəcək arqumentlərdir. Amma heç də faktların və arqumentlərin bununla bitməməsi işğalçı ölkənin silahlanma niyyəti ilə bağlı həmin fikirdə israrlı olmaq üçün kifayət edir və məqsədin yenə də sabitliyə mane olmaq olduğu ortaya çıxır.

Xüsusilə diqqətə çatdıraq ki, Fransa ilə Ermənistan arasında hərbi əməkdaşlığın intensivləşməsi müdafiə naziri Papikyanın ötən ilin sentyabrında Parisə səfərindən və fransalı həmkarı Sebastyan Lekornu ilə yaxından söhbətindən sonra müşahidə edilməyə başladı. Həmin ilin oktyabrında isə Fransa Silahlı Qüvvələri Nazirliyinin nümayəndə heyətinin Ermənistan Respublikasının müdafiə naziri Suren Papikyan ilə və eləcə də həmin ölkənin yüksək texnologiyalar sənayesi naziri ilə görüşlərdən sonra İrəvana gəlməsi də, İrəvanda Fransanın müdafiə məsələləri üzrə daimi attaşesinin təyin olunmasına "xeyir-dua verilməsi" də təsadüfi sayıla bilməz. Görünən odur ki, regionda sabitlik kimlərəsə sərf etmir və buna mane olmaq cəhdlərini heç gizlətmirlər də.

Ən çox diqqət çəkən məqam, Fransadan Ermənistana gözlənilən hərbi tədarüklər haqqında bu ilin mart-aprel aylarında yayılan məlumatlardır, hansıki müxtəlif beynəlxalq nəşrlərdə də bu barədə informasiyalar öz əksini tapıb. Məsələn, beynəlxalq təhlükəsizlik üzrə Amerikanın "Global Security Review" analitik resursu Fransanın "Mistral" zenit-raket komplekslərinin Ermənistana çatdırılma ehtimalı barədə məlumat yayıb. Parisin Ermənistana silah ixracına hazırlaşmağa başladığı barədə məlumatların artıq müxtəlif mənbələrdə yayılması təsadüfi sayıla bilməz. Fransanın Cənubi Qafqazdakı fəaliyyətinin bir sıra aparıcı dünya mediası tərəfindən qeyd edilməsi də, hətta İran mətbuatının da bu barədə informasiyalar yayması da məsələnin ciddiliyindən xəbər verir, çünki rəsmi Tehranın özünün də İrəvana bu kimi yardımlarda maraqlı olduğunu bilirik. Hətta Ermənistana silah göndərilməsi ilə bağlı Parisin verdiyi hərbi-siyasi qərara əsas dəstəyin şəxsən prezident Emmanuel Makron tərəfindən göstərilməsi barədə İranın "Yazeco" xəbər agentliyinin yaydığı məlumat daha çox diqqəti cəlb edir. Ona görə ki, hər zaman Ermənistanın silahlanmasına cəhd edən bir ölkə kimi İranın bu məlumatı açıq-aşkar yayması bir çox məqamlara aydınlıq gətirmək üçün kifayət edir. "Biz Ermənistana imkan yaratmalıyıq ki, öz sərhədlərinin təhlükəsizliyini təmin etsin, yəni silahlanmasına kömək etməliyik", deyən Fransa-Ermənistan Dostluq Qrupunun rəhbəri Devinaz işğalçı ölkənin silahlandırılması barədə fransız bacılarının niyyətini aydın şəkildə bildirirsə, deməli, rəsmi Parisin yenidən Cənubi Qafqazda gərginlik yaratmaq arzusu bəlli olur. Bəlli olur ki, Ermənistana silah tədarükü məsələsində Parisin inadkarcasına canfəşanlıq etməsində məqsəd yenə də regionda sülhə, təhlükəsizliyə, sabitliyə mane olmaqdan ibarətdir və bu, elə onların erməni bacılarının niyyəti ilə üst-üstə düşür.

Artıq keçmişdə qalan Qarabaq məsələsi ilə bağlı düz otuz il ərzində heç bir nəticə hasil edə bilməyən, heç bir uğura imza atmayan, elə buna görə də yararsız sayılan ATƏT-in Minsk Qrupunun dağılmasından sonra bu mənasız qurumun həmsədri olan Fransa bölgədə, regionda iştirakını da sual altında gördüyü üçün artıq əldən-ayaqdan gedir. Rəsmi Paris bilir ki, Ermənistan-Azərbaycan danışıqlarında Fransa öz iştirakını tamamilə itirib. Bu isə o deməkdir ki, Fransa vasitəçi ola bilmir və ilk növbədə, Cənubi Qafqazda maraqlarının təbliği məsələsi də sual altında qalır. Deməli, Fransa Ermənistanla Azərbaycan arasında qarşıdurmada həmişə olduğu kimi, yenə də maraqlıdır və regionda gərginlik ocağının qorunub saxlanması Parisin həmin ərazilərdə mövcudluğunu qoruması üçün lazımdır. Elə bu məqsədlə də Fransa onillər boyu BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilməməsi üçün bacardığını etdi, əlindən gələni də əsirgəmədi. Elə indi də gərginlik yaratmaq üçün əlindən gələni əsirgəmir desək, haqlıyıq. İşğalçı bir ölkəni silahlandırmağa, qarşıdurmalara, təxribatlara təhrik etməyə nə ad vermək olar? Ən yaxşı yalda və ən qısa şəkildə buna, öz maraqları namirə sabitliyə mane olmaq demək mümkündür.

Azərbaycan öz hüquqlarını, haqlarını müdafiə etmək əzmində olduğunu təkcə sözdə deyil, artıq əməldə də təsdiq edib. Ölkəmiz suveren hüquqlarından istifadə edərək müstəqil siyasət yürüdür və bu zaman xarici qüvvələrin mövqeyini nəzərə almaq kimi bir niyyətinin olmadığını ortaya qoyur. İstənilən diplomatik görüşdə, istənilən beynəlxalq platformada ölkəmiz öz milli maraqları fonunda çıxış edir və haqlı mövqeyimizin layiqincə qorunması əzmində olduğumuz göz önündədir. Bu isə görünür heç də hamını qane etmir. Görünür, İrəvanla hərbi əməkdaşlıq yolu ilə Paris Bakıya təzyiq göstərmək üçün səylərini əsirgəmir və bunun üçün də bütün regionun təhlükəsizliyinə təhdid yaratmağa, sabitliyə mane olmağa çalışır və oynadığı oyunlar da buna görədir. Sözsüz ki, İrəvan və Parisin təhlükəli hərbi-siyasi oyunları səbəbindən bütün regionun sabitliyi bununla da təhlükə altında ola bilər və bunu özləri hamıdan yaxşı bilirlər.

Hələ də haylar oyun oynamağa çalışırlar, sülhə nail olmağa yox. Sözsüz ki, oyunları planlaşdıranda da havadar hesab etdikləri, əslində isə, regionda sabitliyi pozmaq niyyətində olanların dəstəyinə arxalanmaq arzusundadırlar. Məsələn, indi də Laçın postunun bağlanmasından sonra guya "fəlakət" yarandığı görüntüsünü yaratmaq istəyən separatçı qüvvələr daha bir oyuna əl atıblar. Belə ki, separatçıların qondarma və dırnaqarası "dövlət naziri" Qurgen Nersisyan mağazalarda yeni rejimin tətbiq edildiyini, bir alıcının bir maldan çox sayda ala bilməyəcəyini bildirməklə, hiyləgərcəsinə diqqəti cəlb etməyə çalışıb. "Bunu təşviş səbəb olmaq üçün demirəm. Lakin balanslı yanaşmalı, istehlakda ehtiyatlı davranmalıyıq. Bundan sonra fərdi avtomobillərin yanacaqla təmin edilməsi prosesi dayandırılır, xidməti avtomobillərin yanacaqdan istifadəsi də ya dayandırılacaq, ya da minimuma endiriləcək", deyən Nersisyan qara-qışqırıq salıb bununla elə Fransanın timsalında regiona müdaxilə etmək istəyənlərin əlinə bir bəhanə vermək niyyəti güdür. Yenə də yalandan "humanitar böhran" deyib çığır-bağır salmaq istəyən separatçılar Bakıya təzyiq edilməsi, özləri də silah-sursat ələ keçirilmələri üçün hər dona girir, hər sifətə düşürlər. Məsələ burasındadır ki, bu hiyləgər addımları ilə regionda sabitliyə, təhlükəsizliyə zərbə vurmuş olurlar, amma bunun fərqində olsalar belə veclərinə deyil.

Şüşa-Xankəndi yolunda aksiya başlayan zamanda belə eyni ssenaridən istifadə edərək, gah yalandan "blokada", gah da qondarma "böhran" deyə süparatçı hayların hay-küy salması da həm silah əldə etmək, həm də sabitliyə mane olacaq qüvvələri regiona yeritmək, ən azından dəvət etmək məqsədi daşıyıb. Elə indi də belə bir niyyət tam çılpaqlığı ilə ortadadır və Fransa kimi bir Avropa ölkəsinin işğalçı ölkəyə silah-sursat təminatı da bundan qaynaqlanır. Elə həmin aksiya zamanı da separatçı haylar ərzağı gizlədərək, ərazilərimizdəki erməni əsilli insanlara talon tətbiq edərək bu gün yaratmaq istədikləri səhnəciyi məharətlə düzəltmişdilər. O zaman da Fransa atılıb ortaya düşmüşdü və fransız bacıları guya hayların halına yanan çıxmışdılar. Dünyaya da səs salıb həmfikir axtarırdılar, amma alınmadı, çünki beynəlxalq ictimaiyyət tərəfindən artıq "erməni yalanı" qəbul edilmir və bundan sonra da qəbul edilən deyil. Amma niyyət, məhz sabitliyə mane olmaq niyyəti ortadadır. Bu niyyət haylar kimi, onlara silah daşıyan və bundan sonra da daşımaq istəyində olan fransız bacılarının da, iranlı qardaşlarının da niyyətidir. Məsələ burasındadır ki, bu çirkin niyyət heç birinə fayda verəsi deyil və elə həmin niyyətləri ürəklərində də qalacaq. Çünki Azərbaycan istənilən anda istənilən təxribat xarakterli ssenarinin qarşısını almaq əzmindədir və Cənubi Qafqazda sabitliyə mane olmaq niyyətləri özlərinə baha başa gələ bilər. Ona görə ki, Azərbaycanın öz ərazilərində hərbi əməliyyatlar keçirməsi, separatizmi ləğv etməsi üçün isə heç bir manеə yoxdur...

**İnam Hacıyev**

## Heydər Əliyev irsini öyrənirik!

*Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər*



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il iyunun 21-də YAP Naftalan şəhər təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Naftalan şəhər Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.



# “Heydər Əliyev xalqın ümidini doğrultdu”

“Hər bir Azərbaycan vətəndaşı 1990-1993-cü illərdə respublikamızın həyatında baş verənləri–hakimiyyətsizlik, anarxiya, qarşıdurmalar illərini yaxşı xatırlayır, o günlər barədə oxuyur, öyrənir və əlbəttə ki, təəssüflənir. Ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət hərisliyi torpaqlarımızın işğalına, dövlətin talanmasına zəmin yaradır, insanların əxlaqına, mənəviyyatına ağır zərbə vururdu. Hakimiyyətdə olanların heç biri respublikanın gələcəyi, insanların taleyi barədə düşünmürdü. Qoluzorlular, silaha güvənənlər, ətrafına az-çox adam toplamağa qadir olanlar ancaq özünə vəzifə axtarır, çapıb talamağı daha üstün tuturdu. Xalq tərəddüdlər, çaxnaşmalar içərisində boğulurdu”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri diqqətə çatdırıb ki, torpaqlarımızın günbəgün işğala məruz qaldığı, ölkəni iqtisadi-siyasi böhran bürüdüyü o günlərdə respublika vətəndaşlarının Ulu Öndərimiz Heydər Əliyevə arxalanması, onu özlərinin xilaskarı kimi qəbul etmələri əsassız deyildi.

“Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-82-ci illərdə, istər



KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

Moskvada yüksək vəzifə daşdığı günlərdə hər an, hər saat respublika sakinləri ilə bir olmuş, doğma vətəninin yüksəlişi, xalqının xoşbəxtliyi naminə bütün çətinliklərə qatlaşmış, Azərbaycanı tanıtmış, şöhrətləndirmişdi. Xalq öz liderinə inanırdı, ona hörmət, etimad bəsləyirdi. Heydər Əliyevin 1993-cü ilin 15 iyununda xalqın təkidi ilə yenidən hakimiyyətə gətirilməsi məhz onun xalq, vətən qarşısındakı böyük xidmətlərindən, müdrikliyindən, qətiyyətindən, təşkilatçılığından, insanlara sevgi və məhəbbətdən qaynaqlanırdı. İnsanlar yaxşı bilirdilər ki, respublikanı düşdüyü ağır vəziyyətdən, iqtisadi və siyasi böhrandan, qarşıdurmalardan, vətəndaş müharibəsindən yalnız Heydər Əliyev kimi torpağına, xalqına bağlı, uzaqgörən bir rəhbər xilas edə bilər.

O dövrdə-hadisələrin cilovlanmadığı, silahlı birləşmələrin heç kimə tabe olmaq istəmədiyi, qarşıdurmaların səngiməməmdiyi, hakimiyyət hərisliyinin artdığı günlərdə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin birdən-birə Bakını tərk etməsi, Kələkiyə getməsi vəziyyəti daha da kəskinləşdirdi. Heydər Əliyevin Prezident səlahiyyətlərini Ali Sovetin sədri kimi öz üzərinə götürməsi tarixi zərurət, həm də qanuna uyğun idi. Ancaq bu, möhkəm iradə, hadisələri nizama salmaq, təlatümlərin qarşısını almaq üçün bacarıq, reallıqları qiymətləndirmək ustalığı tələb edirdi. Ulu Öndərimiz Heydər Əliyev bu vəzifələri o vaxt çox məharətlə həyata keçirdi, hər anın dəyərini verdi və üzərinə ağır bir öhdəlik götürdü.

24 iyun 1993-cü ildə Prezident səlahiyyətlərinin icra etməyə başlaması ilə əlaqədar Ulu Öndərimiz deyirdi: “Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi, özüm üçün əsas vəzifələrdən biri hesab edirəm.” Ümummilli Liderimiz dediyi və qarşıya qoyduğu bütün vəzifələrə həyatı bahasına, gərgin zəhməti, zehni, düşüncəsi, bacarığı sayəsində əməl etdi. Azərbaycanın müstəqilliyini qoruyub saxladı. Vətəndaş müharibəsinin, parçalanma təhlükəsinin qarşısını aldı. Ölkədə ictimai-siyasi sabitlik yaratdı. Çox böyük iqtisadi, beynəlxalq əhəmiyyətə malik layihələri reallaşdırdı, gələcəyimizə uğurlu yol açdı.

Bu günlərimiz, nailiyyətlərimiz məhz Heydər Əliyevin bünövrəsini qoyduğu o günlərin üzərində inkişaf edir, sürətlənir, uğur gətirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, xalqımız o günləri unutmamaqla, Heydər Əliyev ideyalarına sadiq olduqlarını bugünkü möhtəşəm quruculuq işləri ilə nümayiş etdirir, Qarabağ zəfərlərindən, tarixi qələbələrimizdən qürur duyduqlarını və Ulu Öndərimizin adını, əməllərini əbədi olaraq yaşatdıqlarını, ucaltdıqlarını öz əməlləri, hünərləri ilə sübuta yetirirlər”, deyə Tahir Rzayev bildirib.

*İnam Hacıyev*

# “Ruh yüksəkliyi bizim qələbəmizin əsas göstəricisi idi”



“26 İyun Silahlı Qüvvələr Günü Azərbaycanın əhəmiyyətli tarixlərindən biridir. Tale elə gətirdi ki, uzunmüddətli hazırlıqdan, çox ciddi münaqişələrdən sonra dövlət başçımızın rəhbərliyi ilə xalqımız öz ərazi bütövlüyünü bərpa etdi. Bu, silahlı qüvvələrin gücü hesabına baş tutdu. Təbii ki, o gücün arxasında isə Azərbaycan Prezidentinin iradəsi, xalqın dövlət maraqları, əsrlərlə inkişaf edən milli vətənpərvərlik hissləri dayanırdı. Sovetlər Birliyi dağıldıqdan sonra bizə miras qalan bir ordu yox idi”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Nizami Cəfərov deyib.

Onun sözlərinə görə, Sovet ordusunun tərkibində müəyyən qüvvələr var idi: “Onun zabit heyəti yaxşı ki, ötən əsrin 70-80-ci illərində Ulu Öndər Heydər Əliyevin siyasəti və uzaqgörənliyi ilə hazırlanmışdır. Elə həmin zabit heyəti bizim milli ordumuzun qurulmasında mühüm rol oynadı.

Azərbaycan Prezidenti dəfələrlə belə bir həqiqət söyləyib ki, ərazimizi işğaldan azad edən ordumuzda xidmət göstərən gənclərin hər biri onun ölkəmizə rəhbərlik etdiyi dönəmdə yetişib. Bunun əsas mənası ondan ibarətdir ki, 2000-ci illərdən bəri yüksək vətənpərvərlik duyğuları ilə böyüyüb. Ölkənin siyasəti, iqtisadiyyatı, mədəniyyəti və mənəviyyatında elə proseslər gedir ki, bu cür vətənpərvər gənclərimiz yetişib. Bu ruh yüksəkliyi bizim qələbəmizin əsas göstəricisi idi”.

*Ləman Əlizadə*



Lalə Mehralı

# Medianın vicdanı varmı?

***Dövrümüzün özəlliyi texnoloji yeniliklərin ən üst səviyyəyə qədər çıxması, insanı təəccübləndirən yeniliklərin edilməsidir. Hazırkı dövr də məhz belədir- özünəməxsus fəlsəfəsi, estetikası, həyat tərzi, cəmiyyəti, hüquqi, mədəni qaydaları olan bir dövr.***

Bu dövrü bu qədər qüdrətli edən, hökmranlıq etməsi üçün dəstək verən də məhz mediadır. Əlbəttə ki, bura həm televiziyalar, həm radiolar, həm qəzetlər, həm saytlar, həm də bloqlar və sosial şəbəkələr daxildir. Amma gəlin etiraf edək ki indi sosial şəbəkələr digər kütləvi yayım vasitələrini bir neçə addım geridə qoyub və hər nə qədər ciddi media hesab edilməsə də media aləminin ümumi platformasına çevrilib. Bu səbəbdən yeni media sistemi ortaya çıxıb- sosial media.

Mətbuat və televiziya böyük qüvvədir, silahı görünməyən, amma silahların ən təhlükəsinə sahib olan qüvvə. Cəmiyyət medianın əlindəki silahı görmədiyi üçün nəyə məruz qaldığını da anlamır adətən. Bir foto, bir köşə yazısı və yaxud kiçik bir sujet əslində fərqli olan bir faktı tərsindən anlada bilir, cəmiyyətin diqqətini səhv istiqamətləndirə bilir, insani duyğulardan, vicdandan, mərhəmətdən yoğrulan düşüncələri istismar edə bilir.

Media hər dövrdə gücə, hökmə malik olub və hökmranlıq etməyin ən təsirli silahı olub. Lakin dövrümüzdə medianın əldə etdiyi güclə keçmişdəki gücünü müqayisə etmək mümkün deyil. Bu yolla nəzərdə tutulduğundan da çox insana xitab edilib, məqsədə çatmaq üçün insani duyğuların sümürülməsi, vicdan, mərhəmət kimi hisslərin istismarı da həmişə aktual olub.

Yeni nəsil mediada çox təəssüf ki, vicdan faktoru bir çox hallarda arxa planda qalır, əsas kriteriyalar maddi gəlir və kütləyə çıxış əldə etməkdir. Media bir kommersiya obyektinə ya da siyasi təsir alətinə çevrilir. Bu məqsədlə də kütləni aldatmaq, onu istədiyin yerə yönləndirmək lazımdır. Burada isə vicdan arxa plana keçir. Nəticədə, gəlir və nüfuz əldə edilə bilər, amma inam və etibar itirilir. Əgər siz mediada güc və hakimiyyət istəyirsinizsə, bu yolda qarşınıza çıxan anlayışlardan biri də məhz vicdan olacaq. Çünki jurnalistikanın təməl materialı insandır. Hər hansı vəziyyətdə olan bir insan–intihar edən, dünyaya gələn, yaralanan, xəstələnən, sevinən, uğur qazanan, bədbəxt olan hər hansı bir insan yaxşı bir xəbər mövzusu ola bilər.

Yəni, dolayısı ilə qayəsi insan olan bir işin xəmiri də insani hisslərlə yoğrulmalıdır. Məhz bu səbəbdən də jurnalistlərdən ən çox gözlənilən şey də cəmiyyətin vicdanı olmalarıdır. Bu istək, əslində, bizim peşəmizin tərifi, düsturudur. Vicdanımızın olub-olmaması fərddən fərdə dəyişə bilir, amma peşəmizin əsas tələbi dəyişməzdir.

Düzdür, əslində, medianın boynuna çox şey yükləyir, çox şey tələb edirlər. Həm haqlıdırlar, həm də haqsız. Medianın vəzifələri əlbəttə çoxdur, lakin unutmaq lazım deyil ki media həm də bizim özümüzü özümüzə təqdim edir. Media cəmiyyətin gözüdür, dilidir, qulağıdır, amma cəza kəsəni, ittiham edəni, hökm verəni deyil. Media güzgü olmalıdır, düzü düz, əyrini əyri göstərməyi bacarmalıdır. Bunu etmək üçün isə vicdan lazımdır.

Nə cür yazılırsa yazılsın, nə cür adlandırılırsa adlandırılsın, fərqi yoxdur- vicdan sözü hər dildə, hər millətdə, hər cəmiyyətdə eyni mahiyyət daşıyır. Mənasını hamı anlayır- içimizin gözgüsü. Vicdan və insan kəlmələri, əslində, eyni mənanı verir- insansansa vicdanın var və ya vicdanın varsa insansan. İçimizdəki ən böyük hakimin adı vicdandır. Bütün ideoloji, milli, mənəvi, sosial, siyasi vəziyyətlərdə vicdanla qərar qəbul etməyimiz diləyi ilə



# Qüdrət və qətiyyət örnəyi: Azərbaycan -Türkiyə!

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 13-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında hərbi və müdafiə sənayesi sahəsində Azərbaycan-Türkiyə münasibətlərinin uğurla davam etdiyini, Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsinin təsadüfi olmadığını vurğulayaraq bildirib ki, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük".***

Dövlət başçısı bildirib ki, bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək. Bəli, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu gün iki qardaş ölkələr hərbi sahədə fəal əməkdaşlıq edir. Bu gün Azərbaycanın çox güclü ordusu var və hər bir vətəndaş ordumuzla qürur duyur. 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, səmərəli nəticələr əldə olunur. Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və

*İLHAM ƏLİYEV: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük"*

yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

## TÜRKİYƏ-AZƏRBAYCAN - QARDAŞ DÖVLƏT, QARDAŞ ORDU!

Ölkəmizin bütün sahələrində olduğu kimi, hərbi əməkdaşlıq sahəsində də ən yaxın tərəfdaşı Türkiyə Respublikasıdır. Belə ki, Azərbaycan Ordusunun döyüşaparma və özünümüdafiə qabiliyyətlərinin artırılması, o cümlədən hərbi arsenalımızın müasir dövrün tələblərinə cavab verən texnika və silahlarla zənginləşdirilməsində qardaş ölkənin təcrübəsindən geniş şəkildə istifadə olunur. Türkiyə Respublikasının Silahlı Qüvvələri müasir dünyanın ən güclü ordularından biri olmaqla, günümüzdə tətbiq olunan yeni proqram və mexanizmlərin Azərbaycan Ordusuna inteqrasiyasında əhəmiyyətli rol oynayır. İki dövlətin ordu rəhbərliyi arasında keçirilən yüksək səviyyəli görüşlər, iki ordunun hərbi qulluqçularının iştirakı ilə təşkil olunan təlimlər nəticəsində Azərbaycan Ordusunun güclənməsi və müasir tələblər çərçivəsində qurulmasına yönəlik mühüm işlərə imza atılır. Bir sözlə, önəmli olan odur ki, tarixi köklərə söykənən və fundamenti qarşılıqlı etimad prinsipi üzərində qurulan əməkdaşlıq və tərəfdaşlıq bu gün ən yüksək dövrünü yaşayır.

Yüksək beynəlxalq tribunalardan öz sözünü deyən, milli mənafeyini qoruyan, böyük iqtisadi potensiala malik ölkəmiz İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoyaraq əldə etdiyi Qələbə ilə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Qürurverici haldır ki, bu gün Azərbaycan ilə Türkiyə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib. Ölkələrimiz milli maraqlara uyğun beynəlxalq əhəmiyyətli böyükhəcmli layihələrin reallaşmasına birgə səy göstərir. Hərbi sahədə də müttəfiq olan iki qardaş ölkə 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqaviləyə əsasən müstəqilliyin qorunması, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı istiqamətində bir-biri ilə sıx əməkdaşlıq edirlər. Müqavilənin ikinci maddəsində ölkələrdən hər hansı biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldığı halda, öz imkanları daxilində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri nəzərdə tutulur. Müqavilədə həmçinin, hər iki dövlətin səylərini birləşdirməsi, müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq perspektivləri öz əksini tapıb. Bu baxımdan, Cənubi Qafqaz regionunda söz sahibi olan Azərbaycan qardaş Türkiyə ilə birgə beynəlxalq sülhə, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir, sülhü təhdid edən çağırışlara qarşı səylərini birləşdirirlər. 2018-ci ilin fevral ayında "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında" sazişin imzalanması ilə iki qardaş ölkə hərbi təchizat və silah sahəsində elmi və texniki bacarıqlarından istifadə edərək müdafiə sənayesi üzrə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində birgə addımlar atmağa başlamışlar. Sazişə əsasən Azərbaycan və Türkiyə müdafiə təyinatlı mal və xidmətlərin təkmilləşdirilməsi, istehsalı, tədarükü, ardıcıllığı və müvafiq texniki, eləcə də maddi-texniki təminat sahələrində daha səmərəli əməkdaşlıq edirlər.

Bütün bunların fonunda bir-birinə qarşılıqlı yardım göstərmək, Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilir. Müntəzəm olaraq keçirilən birgə təlimlər isə hər iki ölkənin silahlı qüvvələri arasında təcrübə mübadiləsi, hərbi biliklərin mənimsənilməsi yönündə mühüm əhəmiyyət kəsb edir. Belə ki, hərbi arsenalında dünyanın ən müasir, yeni nəsil silah və hərbi texnikası olan Azərbaycan Milli Ordusunun döyüş qabiliyyətinin artırılması məqsədilə bütün birlik və birləşmələrdə - Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Orduda, o cümlədən Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrində, tank, artilleriya, kəşfiyyat, mühəndis-istehkam hərbi hissələrində, Xüsusi Təyinatlı Qüvvələrdə gündüz və gecə şəraitində müxtəlif səviyyəli irimiqyaslı təlimlər keçirilir. Bu təlimlərin böyük əksəriyyəti hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulan Türkiyə dövləti ilə birgə yerinə yetirilir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən ötən il iyunun 28-də Bakıda "Mustafa Kamal Atatürk - 2021" birgə döyüş atışlı taktiki təlim, Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən hər üç ölkənin hərbi qulluqçularının peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verən "Üç qardaş - 2021" beynəlxalq təlimi, Gürcüstanın Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2021" kompüter dəstəkli, nəzəri və praktiki hissədən ibarət olan komanda-qərargah təlimi və s. iki ölkənin hərbi sahədə yüksək səviyyəli əməkdaşlığının bariz nümunəsidir.

2018-ci ildən etibarən Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" - T3 Vəqfinin təşkilatçılığı ilə hər il Türkiyədə keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının ötən bu il may ayının 26-da ilk dəfə Türkiyədən kənarda olaraq Bakıda keçirilməsi Türkiyə ilə Azərbaycan arasında mövcud olan hərbi müttəfiqliyin möhtəşəm təntənəsi oldu. Elm, inkişaf və texnologiya festivalı olan TEKNOFEST Azərbaycan ilə Türkiyənin sözdə deyil, əməldə qardaş olan iki dövlət olduğunu göstərdi.



Festivalda ölkələrimizin kosmik agentlikləri və müvafiq qurumları bir araya gəldi. Dünyanın ən məşhur aviasiya, kosmos və texnologiya festivalı olan TEKNOFEST iki qardaş ölkənin hər məsələdə olduğu kimi, müdafiə sənayesində də bir-birinə güvəninin rəmzi oldu. 2022-ci il oktyabr ayının 6-da Türkiyə Respublikasının Marmaris şəhərində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin dəniz xüsusi taborlarının sualtı hücum (SAH) və sualtı müdafiə (SAM) bölmələri ilə Türkiyə HDQ xüsusi təyinatlı bölmələri ilə birgə təlim keçirmiş, iki qardaş ölkənin hərbi qulluqçuları quru və dəniz taktikalarının işlənməsi, partlamamış döyüş sursatlarının və dəniz minalarının axtarışı, eləcə də məhv edilməsi üzrə tapşırıqları icra etmişlər. Oktyabrın 22-də Türkiyədə Azərbaycan, Gürcüstan və qardaş ölkənin hərbi qulluqçularının iştirakı ilə keçirilən "Eternity-2022" kompüter dəstəkli komanda-qərargah təlimində strateji əhəmiyyətli, regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqlar icra edilmişdir.

Bir sözlə, iki qardaş ölkə arasında imzalanmış müqavilələr hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığı əhatə edir.

### PREZİDENT İLHAM ƏLİYEV: "Hərbi təlimlər Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür"

İki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də birgə hərbi təlimlərin keçirilməsidir. Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsaslı təmələ sahib olan Azərbaycan-Türkiyə əlaqələri bugün daha da inkişaf etdirilməkdədir. Tarixi köklərə və qardaşlığa söykənən iki ölkə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. sahələrdə uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir. Türkiyə dövləti beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi bütün səyləri daim müdafiə edib. 2021-ci il 15 iyunda Şuşada Azərbaycanla Türkiyə arasında imzalanan Müttəfiqlik Bəyannaməsi münasibətlərin ən yüksək zirvəsi idi. Artıq iki ölkə arasında hərbi strateji plana əsasən silahlı qüvvələrin birgə hərbi təlimləri icra edilir. Azərbaycan-Türkiyə ordusu anlayışı artıq bir ordu anlayışı ilə əvəzlənib. Çünki birgə keçirilən hərbi təlimlərin xronologiyası və müttəfiqlik sazişinə uyğun olaraq Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelində inkişafı bu amili şərtləndirib.

Prezident İlham Əliyev İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında çıxışında Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin qeyd etdiyi fikirləri diqqətə çatdırıb: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

Türkiyə hər zaman Azərbaycanın yanında olub, ölkəmizin haqq işini dəstəkləyib. Bu əlaqələrin hazırkı səviyyəyə gəlib çatmasında dövlət başçılarının qarşılıqlı səfərləri, Türkiyənin daim Azərbaycanın, Azərbaycanın da Türkiyənin yanında olması önəmli əhəmiyyət kəsb edir. Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə mənəvi-siyasi cəhətdən yaxın olan ölkələr tapmaq mümkün deyil. İki ölkənin münasibətləri unikal bir nümunəyə çevrilib. 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, daha bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Postmüharibə dövrünün reallıqları da bu gerçəkliyi bir daha təsdiqləyir. "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi" deyə Prezident İlham Əliyev çıxışında bildirib.

*Türkiyə hər zaman Azərbaycanın yanında olub, ölkəmizin haqq işini dəstəkləyib. Bu əlaqələrin hazırkı səviyyəyə gəlib çatmasında dövlət başçılarının qarşılıqlı səfərləri, Türkiyənin daim Azərbaycanın, Azərbaycanın da Türkiyənin yanında olması önəmli əhəmiyyət kəsb edir.*

### "ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI İLƏ TÜRKİYƏ VƏ AZƏRBAYCAN RƏSMƏN MÜTTƏFİQ OLDULAR"

Müasir Azərbaycanın tarixində müstəsna yer tutan hadisələrdən biri də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanmasıdır. Bu hadisə iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi şanlı tariximizin ən qürurverici səhifələrindən biridir. "Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular", - deyən Prezident tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi olduğunu qeyd edib: "Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir". Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu Bəyannamənin müddəaları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin bir çox aspektini əhatə etsə də, Hərbi Doktrinada nəzərdə tutulan xarici hərbi və siyasi təhdidlərin neytrallaşdırılmasında və ya onlara qarşı balans yaradılmasında xüsusi əhəmiyyət kəsb edir.

Hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun professional inkişafında böyük rol oynayacaq. Eyni zamanda, Azərbaycan torpaqlarının işğaldan azad olunmasında Prezident Ərdoğanın göstərdiyi siyasi iradə çox vacib rol oynadı.

Müdafiə sənayesində önəmli rolu olan şəxslərdən biri də Səlcuq Bayraktardır. Məhz onun təşəbbüsü ilə bu gün türk hərbi sənayesi dünyanın aparıcı hərbi qüvvəsi hesab olunur. Bayraktarın növbəti hərbi sənaye uğuru "Bayraktar TB3" Türkiyə Cümhuriyyətinin 100-cü ildönümündə 27 aprel - 1 may tarixləri arasında İstanbul Atatürk Hava Limanında keçiriləcək TEKNOFEST 2023 sərgisində ilk dəfə ictimaiyyətə nümayiş etdiriləcək. "Bayraktar TB3" qatlana bilən qanad quruluşu ilə "TCG Anadolu" kimi qısa uçuş-enmə zolağı gəmilərindən qalxıb-enmə qabiliyyətinə malik dünyada ilk silahlı pilotsuz uçuş aparatı olacaq.

Türkiyə dünyanın ən qabaqcıl texnologiyası ilə təchiz edilmiş avtomobil sənayesi quracaqdır. Bu, inanılmaz hadisədir. Qardaş Türkiyənin bu uğuruna xalqımız, xüsusilə Prezident İlham Əliyev səssiz qala bilməzdi. Məhz ilk olaraq Prezident İlham Əliyevin R.T.Ərdoğana təbrik zəngi buna bariz nümunədir. Eyni zamanda, "Togg"un ilk buraxılışının Bakıya gətirilməsi və Prezident İlham Əliyevə təqdim edilməsi iki qardaş ölkənin sevincinin paylaşılması kimi dəyərləndirilməlidir. Məhz buna görə Prezident İlham Əliyev "Togg" elektromobilinin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirib.

Avtomobil istehsalı sənayesinin inkişafı Türkiyə milli iqtisadiyyatının və ümumiyyətlə, ölkədə sosial-iqtisadi rifahın yüksəlməsində çox təsirli rol oynayacaq. Birincisi, Türkiyə öz milli markasını dünya bazarına təqdim etməklə, ticarət predmetini yaratmış olur. Bu da öz növbəsində ölkəyə yeni maliyyə axını kanalını təmin edəcək. İkincisi, Türkiyə avtomobil bazarının tam ixracdan asılılığını əhəmiyyətli dərəcədə zəiflədəcək. Təsadüfi deyil ki, beynəlxalq ekspertlər "Togg"un istehsalını Türkiyənin 60 illik xəyallarının gerçəkləşməsi kimi qiymətləndirirlər. Bu, "Bayraktar" PUA-larından sonra Türkiyəni dünyada modern texnologiyalar istehsalçısı qismində tanıdan ikinci möhtəşəm nailiyyətdir. Bu, eyni zamanda, qardaş ölkədə son illər müdafiə sənayesi ilə yanaşı, mülki sənaye sahələrinin də inkişaf etdirildiyini təsdiqləyir.

Son illərdə müdafiə sənayesi sahəsində sürətlə yüksələn Türkiyə bir neçə gün öncə yeni bir ilkə imza atdı. Aprelin 10-da yerli şirkətlər tərəfindən inşa edilən "TCG Anadolu" amfibiya hücum gəmisi Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verildi. 2016-cı ildə inşasına başlanan "TCG Anadolu" PUA (pilotsuz uçuş aparatları) gəmisi dünyanın ilk PUA gəmisi hesab olunur. Türkiyə mətbuatına istinadən deyək ki, qardaş ölkənin yerli şirkətləri tərəfindən istehsal edilən "Bayraktar TB3" PUA-ları, "KızılElma" insansız qırıcıları, "Hürjet" təlim təyyarələri hərbi gəmidən enib-qalxa biləcək. Uzunluğu 231 metr, eni 32 metr olan "TCG Anadolu" vasitəsilə 19 helikopter, 30 müxtəlif zərbə PUA-ları, 13 tank və digər zirehli texnikalarda daşına biləcək. Türkiyə Hərbi Dəniz Qüvvələrinin ən böyük gəmisi olan "TCG Anadolu" 1400 hərbçi daşımaq qabiliyyətinə malikdir. Hərbi baxımdan "TCG Anadolu" Türkiyə və müttəfiqlərinə çevik imkanlar təqdim edəcək. Bu kimi strateji döyüş gəmiləri əməliyyat planına uyğun olaraq öz tapşırıq qrupları ilə birlikdə hərəkət edirlər. Keçirilən mərasim zamanı Türkiyə Prezidenti R.T.Ərdoğan Türkiyənin müdafiə büdcəsinin 75 milyard dollara çatdırılacağını bəyan edib. Bu il rəsmi Ankara müttəfiq ölkələrə silah ixracını 6 milyard dollara artırmağı, yeni silah və texnika istehsal etməyi planlaşdırır. Hazırda Türkiyənin silah və texnikaya olan ehtiyacının 70 faizindən çoxu yerli şirkətlər tərəfindən qarşılanır.

Bir sözlə, hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun professional inkişafında böyük rol oynayacaq..

Beləliklə, tam əminliklə deyə bilərik ki, Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir.

Azərbaycan qardaş Türkiyənin uğurlarına hər zaman sevinir. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Bizim qardaşlığımız əbədi və sarsılmazdır! Bütün dünya bilsin ki, Azərbaycan-Türkiyə əməkdaşlığı və qardaşlığı möhkəmdir, sarsılmazdır. Çünki Azərbaycan və Türkiyə təkcə iki dövlət, bir millət deyil - qardaş dövlət, qardaş ordudur!

**RƏFİQƏ KAMALQIZI**

# Ulu Öndər şanlı Zəfərimizin möhkəm təməlini yaradıb



## YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib





"Heydər Əliyev İli" çərçivəsində iyunun 21-də Şəki şəhərində Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının gənclərlə növbəti görüşü keçirilib. Tədbirdə partiyanın Şəki, Balakən, Zaqatala, Qax, Oğuz və Qəbələ rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər. Tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub.

Gənclər Şəki Xan sarayı ilə tanış olub, Şəki Heydər Əliyev Mərkəzinə ekskursiya ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O vurğulayıb ki, Vətəninə, xalqına sədaqətlə xidmət edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən müdrik dövlət xadimidir. Azərbaycan gənclərinin əsl vətəndaş kimi formalaşmasında Heydər Əliyevin danılmaz əməyi və misilsiz xidmətləri var.

Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən, dahi şəxsiyyətin xilaskarlıq missiyasından danışan YAP Veteranlar şurasının üzvü, "91-lər"dən olan Tahir Məmmədov qeyd edib ki, Ümummilli Liderimiz Azərbaycanın parlaq gələcəyini təmin edib. O bildirib ki, Ulu Öndər Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxararaq şanlı Zəfərimizin möhkəm təməlini yaradıb. Bu gün Azərbaycan Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir. YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov vurğulayıb ki, Heydər Əliyevin əbədiyaşar ideyalarının gənc nəslə aşılanması müstəsna əhəmiyyətə malikdir: "Ulu Öndər hər zaman gənclərə hərtərəfli qayğı göstərib. Bu gün Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev gəncliyin inkişafına xüsusi diqqət yetirir. Gənclər Ümummilli Liderin müəyyənləşdirdiyi yolla getməlidir. Çünki bu yolun alternativi yoxdur. Ulu Öndərimizin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir". Sonda gənclərin sualları cavablandırılıb.

# Ekoloji terror: məhv edilən təbiət

*30 ilə yaxın işğalda olan ərazilərimizə ekoloji zərbə vurulub. Bu gün onların aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər görülür. Arazboyu ərazilərdə aparılan monitorinq və müşahidələr göstərib ki, yaşayış məntəqələrində olmuş bütün evlər, binalar, tarixi abidələr, qəbristanlıqlar tamamilə dağıdılıb, yolların kənarındakı tut, qovaq, çinar, şam və meyvə ağacları kəsilib, bəzi yerlərdə isə tamamilə yandırılıb. Meşələrdə və yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilib. Düşmənlər burada evləri, meşələri yandırıb, ekoloji terror törədiblər.*



Ümumiyyətlə, su ehtiyatlarının çirkləndirilməsi, meşələrin yandırılması taktikası Ermənistanın ekoloji terror siyasətinin əsas elementlərindən idi.

Ermənistanın həyata keçirdiyi təcavüz siyasəti nəticəsində işğal olunmuş ərazilərdəki Azərbaycan təbiətinə, bioloji müxtəlifliyinə və bütövlükdə, regionun ekoloji durumuna güclü təsir göstərmişdir.

### TƏBİƏT MÖCÜZƏSİ – TOPXANA MEŞƏSİ

Ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Topxana meşəsini də əhatə edir. Bildiyimiz kimi, Topxana meşəsi Şuşanın qədim tarixə malik nadir sərvətlərindəndir. Ötən əsrin 80-ci illərin sonunda baş verən hadisələrin başlanğıcı da elə Topxana meşəsinin qırılmasından başlanmışdır. 1988-ci ilin noyabrın 17-də Şuşada yerləşən məşhur, əzəmətli palıd, çinar meşəsi - Topxana meşəsinin qırılmasına etiraz əlaməti olaraq Azərbaycan xalqı Azadlıq meydanında ilk mitinq keçirdi. Mitinqin təşkil olunmasında məqsəd xalqın səsini Moskvaya çatdırmaq idi. Topxana meşəsinin qırılması 1988-ci ilin anti-sovet mitinqlərinin alovlanmasına səbəb oldu və beləliklə, 17 noyabr 1988-ci ildə Meydan hərəkatı başladı. Əlbəttə ki, Şuşa şəhəri yaxınlığında yerləşən Topxananın adı 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı mühasirə etdiyi zaman topların yerləşdirildiyi yer olması ilə bağlıdır.Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qarağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi. Mənbələrdə də qeyd olunduğu kimi, Topxananın heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar olub.İşğalçı ermənilər sərvətlərimizi talan edib, meşələrimizi də qırıb daşıyıblar. Məlumatlara istiinadən qeyd edək ki, Topxanadan 2000 ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib. Şuşa rayonu ərazisindəki torpaqların 20 faizini əhatə edən bu meşədə yaşı bilinməyən müxtəlif növ ağaclar vardı. Lakin ermənilər işğal dövründə təbii sərvətlərimizi də talayıb, meşələrimizi də qırıblar.

## *Prezident İlham Əliyev: "54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb"*

1988-ci ilin noyabrında başlanan ekoloji terror və 30 ilə yaxın işğal müddətində Topxanada minlərlə qiymətli ağac kəsilərək məhv edilib. Artıq yeni bir dövr başlanıb: abadlıq və quruculuq dövrü. Azərbaycanda işğaldan azad olunan ərazilərdə aparılan genişmiqyaslı layihələr bu məkanların ağciyərləri hesab olunan meşələrin də bərpasından yan ötməyib. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində ağacəkmə aksiyası çərçivəsində 3 hektar ərazidə dağdağan, göyrüc, saqqızağacı, qarağac əkilməsi, əraziyə 100 kiloqram palıd toxumu səpilməsi artıq bu meşəyə yeni həyatın qayıtmasından xəbər verir. 28 il işğal altında qalmış Topxana meşəsində dağıdılmış bitki örtüyü, məhvedilmiş heyvanat aləminə yeni nəfəs gəlib. Qələbəmizin simvolu olan Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşanın hər bir məkanında qaynar həyat başlanıb.

### YAŞI 1600, 900 VƏ 500 İL OLAN ŞƏRQ ÇİNARLARI MƏHV EDİLİB

44 günlük Vətən müharibəsində ermənilər qadağan olunmuş fosfor bombalarından istifadə edirdilər ki, bu bombaların düşdüyü ərazidə hər şey məhv edilib. Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarları məhv edilib. Bu ağacların yerində bitən 2 metrə qədər pöhrələr bu qədim çinarların bir neçə il əvvəl kəsildiyini təsdiq edir. Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində, təxminən, 110 min hektar ərazi sıradan çıxmışdır. Ağ fosfor bombalarından istifadə edən ermənilər Şuşa meşələrinə böyük zərbə endirmişlər.Hazırda işğaldan azad edilmiş ərazilərimizdə ekoloji fəlakətin ziyanların aradan qaldırmaq məqsədi ilə işlər görülür.

### BAXSIN BÜTÜN DÜNYA, ERMƏNİPƏRƏST QÜVVƏLƏR BU GÜNƏ QƏDƏR KİMİ MÜDAFİƏ EDİRLƏR?

Faşist ideologiyaya malik ermənilər 30 ilə yaxın işğal altında olmuş Azərbaycan ərazilərindəki meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara böyük zərbə vurub. Azərbaycanın "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət inciləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan dəyib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizim meşə fondumuz da məhv edilib, 54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb". Dövlət başçısı onu da qeyd edib ki, işğala qədər bizim meşələrimizin ümumi həcmi təqribən 220-230 min hektar idi.Zəngilan bölgəsi də hələ qədim zamanlardan sıx meşələri, münbit vadiləri, yaşıl bitki örtüyü, gur sulu çayları ilə diqqəti cəlb etmiş məkan olub. Buranın Çinar meşəsi təkcə Zəngilan rayonunun deyil, bütün Azərbaycanın flora-faunasının zənginliyində müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Zəngilan rayonunda, Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada ikinci, bəlkə də birinci meşədir. Erməni vandallarının çirkin əməllərinin nəticəsi olaraq bu meşəyə də böyük zərbə vurulub. Cənab Prezidentin bildirdiyi kimi, "Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın". İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də məhz işğaldan azad olunan ərazilərdə bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Bu baxımdan həmin ərazilərdə bioloji müxtəlifliyin bərpası, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsi istiqamətində işlər aparılır.

***Zümrüd BAYRAMOVA***

# "Ermənistan davamlı təxribatları ilə açıq-aşkar sülhə təhdid yaradır"

*Artıq iki ildən çoxdur ki, Azərbaycan bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi, Ermənistanla münasibətlərində yeni səhifənin açılması üçün qarşı tərəfə sülh müqaviləsinin imzalanmasını təklif edib. Eyni zamanda, ilk gündən belə bir bəyanatı da səsləndirib ki, təklif uzun müddət masa üzərində qalmayacaq. Bununla bağlı müxtəlif səviyyələrdə, məkanlarda görüşlər, danışıqlar aparılır.*



Moskva, Soçi, Brüssel, Praqa, ABŞ, Kişineu görüşlərinin hər biri irəliyə doğru addım, Azərbaycanın diplomatik qələbəsi kimi dəyərləndirildi. Keçirilən hər bir görüşdən öncə diqqət çəkən məqam budur ki, Ermənistan danışıqlar prosesinə mane olmaq üçün hərbi təxribatlara daha çox maraq göstərir, bununla da prosesi uzatmaq istəyini açıq-aşkar nümayiş etdirir. 30 illik işğal dövründəki vəziyyətin təkrarlanmasında maraqlı olan işğalçı Ermənistan unudur ki, bugünkü Azərbaycan o dövrün Azərbaycanı deyil. Bu gün ölkəmiz qalib tərəf olaraq reallıqları özü diktə edir. Bu reallıqların qəbulu istiqamətində atılan addımların uğurlu nəticələri Azərbaycana beynəlxalq dəstəkdə özünün aydın ifadəsini tapır. 30 il davam edən işğal dövründə Ermənistana dəstək missiyasını yerinə yetirən Fransa kimi dünyanın bəzi dövlətləri bu gün də eyni vəziyyətin yaşanmasında maraqlı olsalar da artıq bunun mümkünsüzlüyünün fərqindədirlər. Sülh müqaviləsinin imzalanmasında, təbii ki, Ermənistan daha çox maraqlı olmalıdır. İlk növbədə o baxımdan ki, məğlub dövlət iqtisadi vəziyyətini yeni əməkdaşlıq formatlarına qatılmaqla, kommunikasiyaların açılmasına nail olmaqla yaxşılaşdıra bilər. Lakin son aylarda Ermənistanın sərhəd bölgələrində törətdiyi təxribatlara, atəşkəsin pozulması cəhdlərinə diqqət yetirsək görərik ki, işğalçı dövlət hələ də baş verənlərdən nəticə çıxarmayıb. Əvvəldə də qeyd etdiyimiz kimi, müxtəlif səviyyələrdə, məkanlarda sülh danışıqlarının aparılmasına baxmayaraq Ermənistanın çirkin niyyətlərindən əl çəkmək istəməməsi hələ də dünya çapında beynəlxalq hüququn işləməməsinin təsdiqidir. Beynəlxalq hüququn norma və prinsiplərinin tətbiqi üçün vahid mexanizmin olmaması problemlərin yaşanmasına, Ermənistanın hələ də verilən dərslərdən nəticə çıxarmamasına səbəb olur. Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Ermənistanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində - Arazdəyəndə iri metallurgiya zavodu inşa etməyə hazırlaşması növbəti ekoloji cinayətdir. Belə ki, işğalçı ölkə yenə də beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur, dünyanın bəzi dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar isə susmaqda davam edir. İyunun 15-də Laçın sərhəd buraxılış məntəqəsinin Ermənistan tərəfindən atəşə tutulması beynəlxalq hüquq normalarının pozulması, müstəqil Azərbaycana qarşı törədilən növbəti təxribat kimi qəbul olunur. Xarici İşlər Nazirliyinin bəyanatında bu mühüm məqam qeyd edilir ki, bu hərbi təxribat Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təcavüz olmaqla yanaşı, sərhəd buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə, erməni sakinlərin təhlükəsiz, sərbəst və maneəsiz keçidinə, habelə Laçın yolu ilə hərəkətinə maneçilik törətmək məqsədi daşıyır.

Baş redaktor onu da əlavə edib ki, son günlərdə Naxçıvan, Zəngilan, Gədəbəy, Şuşa rayonu istiqamətində yerləşən mövqelərimizin erməni silahlıları tərəfindən atəşə tutulması faktları da təsdiqləyir ki, Laçın sərhəd-buraxılış məntəqəsinə qarşı hərbi təxribat da daxil olmaqla erməni silahlılarının sərhəddə yaratdıqları gərgin vəziyyət ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə təcavüzdür. Ermənistanın sərhəd bölgəsində törətdiyi təxribatların davamlılığı təsdiqləyir ki, işğalçı dövlət açıq-aşkar sülh istəmir. Əvvəldə də qeyd etdiyimiz kimi, 30 il davam edən işğal dövründə danışıqlar prosesinə imitasiya naminə qatılan Ermənistan sonda 44 günlük İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Həmin dövrün reallıqlarına nəzər salsaq görərik ki, hər bir sülh danışığı ərəfəsində Ermənistan tərəfindən hərbi təxribatların törədilməsi artıq ənənə halını almışdı. Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqların intensivləşdiyi, Brüssel formatının yenidən bərpa olunduğu indiki məqamda işğalçının vədlərinə əməl etməməsi, hərbi təxribatlar törətməklə vaxt qazanmağa çalışması artıq müxtəlif sualların yaranmasına səbəb olmaya bilməz. Ermənistan ölkəmizin təqdim etdiyi və beynəlxalq hüququn 5 əsas prinsipini özündə ehtiva edən sülh müqaviləsini, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, amma fürsət düşən kimi təxribatları ilə gündəmdə olur. Dövlət başçısı İlham Əliyevin elə bir görüşü, beynəlxalq səviyyəli tədbirlərdə elə bir çıxışı yoxdur ki, postmünaqişə dövrünün reallıqları fonunda sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımlardan, onun nəticələrindən bəhs etməsin. Cənab İlham Əliyev bu günlərdə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin ölkəmizə səfəri zamanı mətbuata birgə bəyanatlarında diqqəti bu məsələyə yönəldərək bildirdi ki, bu sazişin imzalanmasının perspektivləri var, sadəcə olaraq, Ermənistan siyasi iradə nümayiş etdirməlidir və artıq rəsmi olaraq bəyan etdiklərini kağız üzərində həkk etməlidir ki, Qarabağ Azərbaycandır!



Vüqar Rəhimzadə belə bir ümumiləşdirməni aparıb ki, işğalçı Ermənistana havadarlarının dəstəyi, beynəlxalq hüququn zamana və məkana görə tətbiqinin hələ də qüvvədə olması təcavüzkar dövlətin bu cinayətlərinin davamlılığına şərait yaradır. Hər zaman qeyd edildiyi kimi, işğalçı dövlətə zamanında sanksiyalar tətbiq edilsəydi, beynəlxalq hüququn norma və prinsiplərinin tətbiqi, BMT qətnamələrinin icrası üçün vahid mexanizm müəyyənləşdirilsəydi belə vəziyyətlər yaşanmaz, dünyada bir etimad mühiti formalaşardı. Tarixi Zəfərimizdən sonra dünyaya ünvanlanan çağırışlar sırasında BMT sisteminin tərkibinin genişləndirilməsi xüsusi yer tutur. Azərbaycanın bununla bağlı təklifləri də mövcuddur. Həmin tərkibdə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin təmsil olunması prioritet məsələlərdəndir. Ədalətin və beynəlxalq hüququn mövcudluğuna, bölgədə, ümumilikdə dünyada sülhün təmin olunmasına xidmət edəcək bu çağırışların hələ də bəyanat olaraq qalması, dünyanın aparıcı dövlətlərinin ikili standartlara əsaslanan siyasətlərinə son qoymaq haqqında düşünməmələri qarşılıqlı etimad mühitini sıfıra yaxınlaşdırır.

# Yeni sığorta sistemi nümunəvi sürücüləri necə zərərə salır?



Elçin Bayramlı

***Hörmətli oxucular, deməli sizə avtomobillərin icbari sığortası ilə bağlı yeni tətbiq olunan sistemin nöqsanlarından danışım. Məlum olduğu kimi, bizdə avtomobil sahiblərinin 90 faizdən çoxu avtomobili əvvəl baş etibarnamə ilə alır, çünki əksər hallarda pulunu əvvəldən tam ödəyə bilmir, hissə-hissə verir. Pulu tam ödədikdən sonra dünyada analoqu olmayan əcaib bir qanun ona icazə vermir ki, maşını öz adına qeydiyyat etdirsin. Gərəkdir ki, bu vətəndaş başqa bir adam tapa maşını ona sata, sonra ondan təzədən alqı-satqı edib öz adına qeydiyyat edə. Yəni, vətəndaş, necə deyərlər, 2 dəfə keflənməlidir qeydiyyat rüsumlarına görə.***

Beləliklə, əksəriyyət maşını baş etibarnamə ilə aldıqdan sonra, məcbur olub öz həyat yoldaşının adına qeydiyyat edir və istifadə edir. Qanuna görə, həyat yoldaşının maşınını hətta etibarnaməsiz da idarə edə bilərsən. Ən uzağı nigah şəhadətnaməsini göstərmək kifayətdir. Çoxu belə də edir. Hər il də icbari sığorta haqqını da özü ödəyir.

Sığortada da məlum olduğu kimi bonus-malus sistemi var. Misal üçün, nümunəvi bir sürücü 10 il qəzasız sürdüyünə və sığortaya heç bir zərər vurmadığına, əksinə xeyir verdiyinə görə 100 manat əvəzinə 60-70 manat ödəyir. İndi bu soyğunçu sığorta şəbəkəsi təzə bir üsul icad edibdir ki, bəs daha sığortanı o özü edə bilməz, mütləq onun həyat yoldaşının adına edilməlidir. Bu halda nə olur?

Bəli, o xanımın sürücü təcrübəsi olmadığından və bonus-malus sistemi ona aid edilmədiyindən, o artıq 60-70 manat yox, 100 manat ödəməli olacaq. Yəni, avtomobili istifadə edən şəxsin 10 illik bonus-malus sistemi batacaq və sığorta təzədən sıfırdan başlayacaq. Demək, ölkədəki 1,5 milyon maşından az qala 1 milyonu orta hesabla 50 manat artıq ödəməli olacaq.

Deməli, vətəndaş mühərrik həcmi 2,3 litr olan avtomobilini 10 il qabaq alıb. Həmin vaxtdan 100 manatdan başlayaraq sığorta haqqı ödəyib. Nümunəvi və qəzasız sürüşüsünə görə bonus-malus sistemi üzrə hər il bu məbləğdə azalma olub və son illərdə 70 manat ödəyib. İndi 60 manata salınma vaxtıdır, amma Azərsığorta şirkəti deyir ki, yox bu il 90 manat ödəyəcəksən. Çünki maşının nömrəsi 90-la başlayır (?), maşını kiməsə etibarnamə ilə vermənsən, daha təhlükəsiz ərazidə istifadə edirsən, üstəlik nümunəvi sürmüsən, qəza etmirsən, sığortaya zərər vurmursan deyə artıq pul ödəməlisən. Yəni, Prius şoferlərinin tez-tez qəza edərək sığorta şirkətinə vurduğu zərəri heç bir zərər vurmayan nümunəvi sürücülər ödəməlidir.

Məsələ ilə bağlı müraciət edən vətəndaşa cavab olaraq şirkət məsuliyyəti İcbari Sığorta Bürosunun üzərinə atır. Dediklərinə görə, bu məntiqsiz qərarı İSB vermişdir. Və İSB bir sistem qurmuşdur ki, şirkətlər onu dəyişə bilmir. İSB-nin bu sistemi nəyin əsasında hansı məntiqlə hansı ədalətlə, hansı qanuna əsasən qurduğunu isə özlərindən başqa heç kim bilmir- bu məxfi sirdir.

Ona görə də, İSB-dən bu suala əsaslandırılmış rəsmi yazılı cavab gözləyirik- vətəndaş bu 10 ildə heç bir qəza etməyərək bonus-malus sistemi üzrə güzəşt qazandığı halda, hansı səbəbdən ondan indiyədək ödədəyi 70 manat əvəzinə bu il 90 manat tələb edilir? Hansı səbəbdən, vətəndaşın 10 illik bonus-malus sistemi batırılır və o yenidən sıfırdan başlamalıdır və 20 manat artıq vəsait ödəməlidir? Bu qərar hansı hansı qanuna əsasən verilib və hüquqi əsası nədir?

Bu məsələni araşdırmağa davam edəcəyik və bu qanunsuz qərarın kim tərəfindən nə məqsədlə verildiyini,

KÜNCDƏN BAXIŞ

# Erməni saytı Paşinyanın ETİRAFINI yaydı!



***Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanda bir sıra məsələlər barədə geniş fikirlər səsləndirib. Bu barədə "Panorama.am" saytı məlumat yayıb. "Mən bu görüşü çoxdan gözləyirdim", – deyə Nikol Paşinyan 27 sentyabr 2020-ci ildə Azərbaycanın başlatdığı müharibənin şərtlərini öyrənmək üçün yaradılmış Ermənistan Milli Məclisinin İstintaq Komissiyasının iclasında bildirib.***



Paşinyanın sözlərinə görə, o, bu gün söylədiklərinin xeyli hissəsini artıq müxtəlif səbəblərdən danışıb, amma bəlkə də bu gün çıxış və sual-cavab formatında Dağlıq Qarabağ münaqişəsi, 44 günlük müharibə, noyabrın 9-da üçtərəfli bəyanatın imzalanması ilə bağlı danışıqlar prosesinin tarixinə hərtərəfli toxunmaq imkanı yaranıb. Paşinyan eyni zamanda İstintaq Komissiyasının açıq iclasının keçirilməsi barədə qərarın vacibliyini qeyd edib.

Baş nazir əvvəlcə üçtərəfli bəyanatı niyə imzaladığını və müharibənin 9 noyabr 2020-ci ildə dayandırıldığını ətraflı şəkildə təqdim edib:

"Əlbəttə ki, Şuşanın süqutu dönüş nöqtəsi oldu. Burada təkcə Şuşanın rəmzi əhəmiyyəti deyil, həm də strateji əhəmiyyəti vacibdir. Şuşanı itirəndən sonra, əslində, Stepanakert (Xankəndi) zərbə altına düşərdi, Martuniyə təzyiqlər artardı, ən əsası isə 25 minə yaxın hərbçimiz mühasirəyə düşər və təhlükə altında qalardı". Paşinyan bildirib ki, 9 noyabr 2020-ci il tarixli bəyanat onların müharibəni dayandırmaq üçün 5-ci cəhdi olub.

***Mətləb Salahov***

# "Fransa olan yerdə haqq-ədalətdən söhbət gedə bilməz"

***"Heç kəsə sirr deyildir ki, Fransa ermənipərəst siyasəti ilə daha heç kimi təəccübləndirmir. Nəzərə alsaq ki, Vətən müharibəsi getdiyi dövründə Emmanuel Makron öz tvitlərini fransız dilində deyil, erməni dilində yazırdı və ermənidən çox erməni olmaq istəyirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.***



Deputat sözlərinə belə davam edib: "O da diqqətdən yayınmır ki, 30 il ərzində hətta Qarabağdakı qondarma rejimi yaradan Ermənistan hakimiyyəti belə bu separatçı rejimin müstəqilliyini tanımamışdı. Amma Fransa parlamentinin hər iki palatası bu qondarma rejimin bu günləri tör-töküntülərinin belə müstəqilliyini tanıyır və beynəlxalq birliyin subyekti kimi görmək istəyir. Hətta Emmanuel Makron bir müddətdən sonra prezident olmayacağı təqdirdə onun erməni lobbisi və diasporunun yaratdığı ən böyük lobbi təşkilatlarının birinə rəhbərlik edəcəyini eşitsəniz, təəccüblənməyin. Yaxud da ki bu prosesdə korrupsiya hallarına görə onun da Sarkazili ilə eyni taleyi yaşayacağına görə təəccüblənməyin. Bu da ola bilər. O da Sarkazili kimi həbs oluna və daha ağır cəzaya məruz qala bilər. Amma bugünkü reallıq ondan ibarətdir ki, Fransa parlamenti tam açıq, birmənalı şəkildə anti-Azərbaycan fəaliyyət göstərir, Ermənistanın yanında yer alır.

Bu günlərdə Fransanın Xarici işlər nazirinin Avropa Parlamentində çıxışında Fransanın erməni xalqının yanında olduğunu bəyan edirsə, siz daha nə gözləyə bilərsiniz?!

İndi də məlum olur ki, həmin Fransa parlamentinin 170 nəfər deputatı qondarma Qarabağdakı erməni separatçılarının dırnaqarası hakimiyyətinə dəstək çağırışı edib. Bu dəstək çağırışında da guya ki Qarabağda yaşayan ermənilərin çox ciddi humanitar fəlakətlə üz-üzə qaldıqları, onlara qarşı sərt blokada siyasəti yeridildiyi, Laçın dəhlizinin ölüm dəhlizinə çevrildiyi, Qarabağda yaşayan ermənilərə qarşı Laçın dəhlizindən təzyiq və təhdid kimi istifadə edildiyinə kimi yalan, iftira ilə dolu məlumatlar öz əksini tapıb.

Hesab edirəm ki, bütün bu reallıqlar fonunda elə Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesindən kənarda saxlanması motivləri başa düşüləndir. Hətta keçən il oktyabr ayının 6-da Praqada və bu ilin iyunun 1-də Kişinyovda keçirilən məlum görüşlər çərçivəsində Emmanuel Makron iştirak etsə belə onun bu iştirakı qapıdan girmə deyil, pəncərədən daxil olma kimi qiymətləndirilə bilər. Oradakı Fransa, Makron və fransız deputatlar var, orada haqq-ədalətdən söhbət gedə bilməz və açıq-aşkar ermənipərəst mövqe ortada olacaq və bu heç kimi təəccübləndirmir.

İndi isə növbəti dəfə biz artıq 170 deputatın timsalında Qarabağdakı separatçı rejimin tör-töküntülərinə çox ciddi bir dəstəyin olduğuna şahidlik etdik. Mənə elə gəlir ki, bütün bu reallıqlar fonunda Avropa İttifaqı şurasının prezidenti Şarl Mişel oktyabr ayında keçiriləcək Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına həsr ediləcək sammitdə heç bir halda Fransanın iştirakı məsələsi heç nəzəri baxımdan da müzakirə məsələsi olmamalıdır".

***Ayşən Vəli***



İLHAM

# Müxalifət nədən polisə şər atır?

Hər zaman demişəm və yazmışam, yenə də təkrar edirəm bu muxalifətin dağıdıcı qanadı heç zaman düzəlməyəcək, islah olunmaları da mümkünsüzdür. Nədən ki, bu məxluqlar Azərbaycan xalqından ayrı düşüblər, yaşayışlarını və təminatlarını xarici fondlara, ayrı-ayrı qaranlıq dairələrə bağlayıblar. Yenə də eyni havanı ifadə edirlər. Səs-küy salıb iddia edirlər ki, Gədəbəy rayonun Söyüdlü kəndində polislə kənd sakinləri arasında baş verən qarşıdurma zamanı polis insanlara qarşı gözyaşardıcı qazdan istifadə edib. Bir qədər də dərinə gedərək polis əməkdaşlarını gözdən salmağa hesablanan ifadələr səsləndirirlər. AXCP sədri Əli Kərimli ABŞ-ın qaranlıq dairələrinin dirijor çubuğu ilə idarə olunan Sevinc Osmanqızının TV-sinə müsahibə verərək Azərbaycan polisi haqqında qeyri-etik ifadələr səsləndirir, ittihamlar irəli sürür. Müsavat, "Milli Şura" üzvləri və onların rəhbərləri də sanki polisi təhqir etmək üçün geniş və əhatəli yarış təşkil edib və bu yarışda öndə olmağa çalışırlar. Əvvəla onu qeyd etmək lazımdır ki, Gədəbəy rayonunun Söyüdlü kəndində bir qrup şəxs bilərəkdən və ya bilməyərəkdən qanunsuz hərəkətlərə yol veriblər. Onlar kənd ərazisində inşa olunan süni gölün tikintisinə mane olmağa çalışıblar. Dəfələrlə qanunsuz əməllərdən çəkinməyə dəvət edilsələr də, müəyyən maraqlı şəxslərin təsiri altında olan bir qrup kənd sakini qanunsuz müdaxilələrindən əl çəkməmiş və polislə qarşıdurmaya getmişlər. Sual yaranır, polis dayanıb qanunsuzluğun genişlənməsini seyr etməli idi? Öyrədilmiş kənd sakinləri nəzarətsizlikdən ruhlanıb, süni göl yaradan işçilərə və texniki avadanlıqlara ziyan vurmalı idimi? Nəzərə almaq lazımdır ki, bir qədər əvvəl Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəsmisi mətbuata açıqlamasında bildirmişdir ki, xidmətin əməkdaşları tərəfindən Gədəbəy rayonunun Söyüdlü kəndində yerləşən Gədəbəy qızıl mədənində istehsal zamanı əmələ gələn sianid tərkibli suların çökdürülməsi üçün nəzərdə tutulan gölə baxış keçirilib: "Baxış zamanı qızıl mədənindən çıxan çirkab suların membranlanmış borular vasitəsilə xüsusi örtüklə izolyasiya olunmuş anbara ötürüldüyü, orada çökdürüldükdən sonra təkrar istifadəyə qaytarıldığı müəyyənləşdirilib. Vizual müşahidələr, monitorinqlər və araşdırmalar göstərib ki, anbardan ətraf ərazilərə və yaxınlıqdakı çaya sianid tərkibli çirkab su axıdılmır. Atmosfer havasında da hər hansı iy və qoxu müşahidə olunmayıb".

Fakt budur ki, istər yerli qurumlar, istərsə də yuxarı dövlət rəsmiləri qarşıdurma yaratmağa meyil edən kənd sakinlərini qanunlara əməl etməyə dəvət ediblər. Görünən ondan ibarətdir ki, insanlar humanist davranışdan, xeyirxah çağırışlardan nəticə çıxarmayıb polislə qarşıdurmaya gediblər. Təbii ki, zor müstəvisində hərəkətlərə müdaxilə yol verilməzdir. Azərbaycan dövləti hüquqi, demokratik dövlətdir. Bu prinsiplərə bütün sahələrdə layiqincə əməl edilir. Lakin onu da anlamaq lazımdır ki, cəzasızlıq qanunsuz əməllərin törədilməsinə gətirib çıxarır. Əgər polisin müdaxiləsi olmasa idi, Gədəbəyin Söyüdlü kəndinin bir qrup sakinin özbaşınalıqları ağır fəsadlar yarada bilərdi. Bu baxımdan, polisin hərəkətlərini və atdığı addımları haqlı hesab edir və dəstəkləyirəm. Bizlər gecələr evimizdə rahat yatanda polisimiz küçə və meydanlarda, sərhəd- keçid məntəqələrində keşiyimizi çəkir. O cəsur, mərd Azərbaycan polisidir ki, yanğınlar zamanı həyatlarını risqə atıb, neçə-neçə insanı xilas edib. Qarabağın erməni terrorçu dəstələrindən azad edilməsi üçün onlarla daxili işlər orqanlarının əməkdaşları canlarını qurban verib, torpaqlarımızın azad edilməsində qəhrəmanlıq səhifəsi yazıblar.

Sosial şəbəkələrdə aparılan müzakirələrə və ictimai nəqliyyatda insanlar arasında olan söhbətlərə əsaslanaraq qeyd edə bilərəm ki, cəmiyyət polisin asayişi qorumaq üçün qanunlar çərçivəsində addımlar atmasını dəstəkləyir. Müxalifətin dağıdıcı qanadının, xüsusilə də Ə.Kərimlinin, C.Həsənlinin, A.Hacılının, T.Yaqublunun və digər gözləri xarici ağalarının ciblərində olan məxluqların Gədəbəyin Söyüdlü kəndində baş verənləri öz maraqları prizmasından baxaraq şərhlər verməsi, sadəcə, riyakarlıqdan və siyasi səbatsızlıqdan başqa bir şey deyil. Sual oluna bilər, Ə.Kərimli, C.Həsənli, A.Hacılı, T.Yaqublu və digərləri Avropada, ABŞ-da polisə tabe olmayan, yanlışlığa yol verən insanlara qarşı necə qəddarlıq edildiyini görmürlərmi? Fransada "sarı jiletli"lərin aksiyası zamanı polis yüzlərlə insanı türmələrə atdı, onlarla aksiya iştirakçısını ən sərt formada döyüb, şikəst etdi. Bu azmış kimi Fransa polisi aksiya iştirakçılarını gözyaşardıcı qazla, su şırnaqları ilə, rezin güllələrlə zərərsizləşdirməyə çalışdı. Hesablamaya görə, "sarı jiletli"lərin aksiyası zamanı 14 min 800 nəfər müxtəlif müddətlərə həbs edildi, 12 nəfər həyatını itirdi, 27 nəfər isə sağlamlığından məhrum olundu. ABŞ-da uşaq oyuncaq tapançanı polisə tuşladığı üçün, həmin uşaq polisin açdığı atəş nəticəsində həyatından məhrum oldu. İki yekəpər polis ABŞ-ın keçmiş prezidenti Barak Obamanın yerlisini döyüb öldürdülər. Hər il ABŞ-da, Almaniyada, Fransada, Norveçdə, İngiltərədə və digər özlərini demokratik, azad ölkə kimi təqdim edən ölkələrdə polis zorakılığından onlarla insan həyatını itirir, ömürlük şikəst olurlar. Bütün bunları Azərbaycanın dağıdıcı müxalif ünsürləri görmürlərsə, deməli, ya kar, ya da kordurlar.

***İ.ƏLİYEV***



# NATO-nun Türkiyəyə ehtiyacı var

*Ankara Şimal Alyansının yeganə müsəlman müttəfiqi olaraq bu qurumun təməlini təşkil edir*

***Türkiyənin istər yerləşdiyi regionun, istərsə də dünya düzəninin siyasi-iqtisadi məkanındakı yerinin və rolunun xüsusi önəm kəsb etməsi danılmaz faktdır. Eyni zamanda, bu gün qardaş ölkənin mövcud iqtidarının beynəlxalq aləmdəki siyasi çəkisinin qəbul olunması da sözügedən reallığı kifayət qədər əks etdirir. Xüsusilə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bir neçə il əvvəl "Dünya beşdən ibarət deyil" fikrini önə sürməsi də belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq qlobal siyasi situasiyada yerlər dəyişdirilir və bu yerdəyişmədə Ankaranın özəl yeri vardır.***





### Türkiyənin dünya birliyində siyasi çəkisinin artması: yeni və daha güclü qüvvə

Son vaxtlar bir sıra Qərb ölkələri Türkiyənin siyasi gücünü həzm edə bilmirlər və bunu nə qədər qəribə görünsə də açıq-aydın etiraf edirlər. Əsasən, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının güclü siyasi mərkəz kimi çıxış etməsi, ölkənin güc strukturlarının regiona ciddi təhdidlər yaradan PKK, PJK, FETÖ və s. kimi təşkilatlara qarşı ardıcıl antiterror əməliyyatları keçirməsi, o cümlədən, Avropadan Asiyaya, oradan isə Afrikaya qədər çevrələrdə öz maraqlarını təmin etməsi qeyd edilən qısqanclıqlara səbəblər yaratmaqdadır. Son vaxtlarda isə Ankaranın İsraillə münasibətlərini əvvəlkindən də münbit şəkildə bərpa etməsi, eləcə də Rusiya-Ukrayna müharibəsində əsas vasitəçiyə çevrilməsi də bu ölkənin siyasi çəkisinin daha da artmasına öz təsirlərini göstərir.

### Finlandiyaya "hə", İsveçə "yox" prinsipi - səbəblər...

Türkiyənin hərbi və mülki sənayesinin texnoloji imkanlarını artırması isə göz önündədir. Bu imkanların artırılmasının hər birinin əsasında bir faktor dayanır: dünyanın hərbi-siyasi və iqtisadi-sənaye elitasında



öncül yeri tutmaq və daha da tərəqqi etmək. Artıq bütün bu gerçəkliklər özünü hərtərəfli şəkildə isbatlamaqdadır. Ankaraya qarşı həzmetməzlik sindromundan qaynaqlanan daha bir amil NATO-ya üzv olmaq arzusunda olan Skandinaviya ölkələrinin yanaşmalarında da müşahidə olunur. Yuxarıda da

Bu gün NATO-ya üzv olan bir sıra Qərb ölkələri - xüsusilə Fransa, Hollandiya kimi ölkələr Türkiyənin Şimal Alyansından xaric edilməsi təklifi ilə çıxış edirlər. Lakin bu təklifin həyata keçməyəcəyini bəri başdan da bəlli etmək mümkündür. Və nə qədər

qeyd olunduğu kimi, Türkiyə Cümhuriyyəti monolit dövlət quruluşu olaraq terrorçuluğa qarşı amansız mübarizəsini davam etdirir və xüsusilə, PKK-ya bağlı olan cinayətkarların bir qismi Finlandiya, İsveç kimi ölkələrdə siyasi sığınacaqlar tapırdılar. Düzdür, Finlandiya İsveçdən fərqli olaraq Ankaranın tələblərini yerinə yetirdi və öz ərazisində PKK-ya və bu təşkilatın üzvlərinə qarşı dəstəyindən əl çəkdi. Lakin İsveç hələ də Türkiyənin terrorçuları təhvil verilməsi tələbini rədd edir. O da əbəs deyil ki, Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan seçki ərəfəsində keçirdiyi toplantıların birində Finlandiyanın NATO-ya üzvlüyünə "hə" dedi və rəsmən bunu bəyan etdi, amma İsveçlə bağlı öz qəti "yox" cavabının da qüvvədə qaldığını vurğuladı.

Türkiyə NATO üçün çox qiymətlidir və Şimali Alyans da bu reallığı dərk edir

maraqlı görünsə də, Türkiyənin NATO-dan xaric edilməsinin mümkünsüzlüyü haqqında İsveçin aparıcı və iri media qurumu – "Dagens Nyheter" nəşri yazıb. İsveç nəşri qeyd edib ki, Türkiyənin bu hərbi alyansdan xaric edilə bilinməməsinin 4 əsas səbəbləri var:

**1.** Hüquqi məsələ. NATO-nun nizamnaməsində ümumiyyətlə, hər hansı bir üzv ölkənin sonradan həmin qurumdan çıxarılması barədə heç nə yazılmayıb. Yəni bu, mümkün deyil.

**2.** Ölkənin coğrafi vəziyyəti və ölçüsü. Türkiyə strateji olaraq Rusiya Federasiyası ilə yanaşı yerdədir, Aralıq dənizi ilə Qara dənizi birləşdirən və Rusiyaya məxsus hərbi-dəniz bazasının yerləşdiyi Bosfor boğazına nəzarət edir. Türkiyənin təkcə bu əraziyə nəzarət etməsi əlbəttə ki, NATO üçün çox qiymətlidir.

**3.** Əgər Türkiyə NATO-dan xaric edilərsə Ankara mexaniki olaraq Rusiya Federasiyasına tərəf keçə bilər. Bu, Rusiya Federasiyasına strateji hədiyyə sayılar və transatlantik rabitəni tamamilə pozar.

### İsveçin "Dagens Nyheter" nəşri: "Türkiyə mürəkkəb oyun aparır..."

Və sonda – "Dagens Nyheter" nəşri qeyd edir ki, Türkiyə NATO-ya daxil olan ilk ölkələrdən biridir: "Baxmayaraq Ərdoğan hazırkı məqamda digər üzv-ölkələrə başağrısı verir, amma bu da davamlı hal ala bilməz. Yadda saxlamaq lazımdır ki, alyansın üzvü Türkiyə prezidenti deyil, Türkiyə dövlətidir. Baxmayaraq ki, Türkiyə NATO üçün "rahatsızlıq yaradır", lakin eyni zamanda, müharibə başlayanda Bosfor boğazında Rusiyaya məxsus hərbi gəmilərin qarşısını aldı, Ukraynanın tərəfini tutdu və bu ölkəyə PUA-lar göndərdi. Türkiyə mürəkkəb oyun aparır...", - deyə İsveç qəzeti yazır. Beləliklə, fakt budur ki, Türkiyə bütün dövrlərdə NATO üçün xüsusi önəm kəsb edən bir dövlətdir və bu ölkənin, əslində, dünya birliyinə ünvanlandığı bəyanatları həm də belə nəticə hasil etməyə imkan yaradır – Ankara qarşısına bir məqsəd qoyub: dünyanın beşdən ibarət olmadığını əməli qaydada isbatlamaq...

***Afət Tahirqızı***

***Qurban bayramına bir neçə gün qalmış mütəxəssislər qurban ətinin hazırlanması və saxlanması ilə bağlı xəbərdarlıq edirlər. Mövzu ilə bağlı danışan Çam və Sakura Şəhər Xəstəxanasının dietoloqu Volkan Çiçekdağ ətin ən az 1 gün dincəlməsi lazım olduğunu vurğulayaraq, uzunmüddətli saxlama üçün dondurucülardan istifadənin vacib olduğunu söyləyib.***

# Qurban əti birinci gün yeyilirmi?..



Qurban bayramında sağlam qidalanmanın mühüm tərkib hissəsi olan ət məhsullarının istehlakı artmasını nəzərə alan mütəxəssis ətin saxlanma şəraiti, istehlakı və düzgün bişirilmə üsullarının da vacibliyinə diqqət çəkir. O, qurban ətinin lazımi şəraitdə saxlanılmaması, yaxşı bişirilməməsi nəticəsində insan sağlamlığına mənfi təsir göstərdiyini bildirib, ifrazat və həzm sisteminə təsir edən parazit növü lent qurdunun bakteriya ilə insan orqanizminə keçdiyini, az və ya çiy bişmiş ət istehlakı və pis gigiyena şərtləri ilə bulaşdığını qeyd edib.





Bayramda ət istehlakı ilə yanaşı, şirniyyatın da artdığını söyləyən Çiçəkdağ bunun həddindən artıq olmamasını vurğulayıb, həmçinin maye qəbulu və idmanla bağlı xəbərdarlıq edib.

### “Qida zəhərlənməsi ola bilər”

Qurban bayramında ətin istehlak edilməsinin və düzgün şəraitdə saxlanmasının vacib olduğunu ifadə edən Volkan Çiçəkdağ, “Qurban ətində sərtlik müşahidə edirik, ona görə baxdığımızda ət ideal olaraq 24 saat dincəlməlidir. Xüsusən də mədəsində problem olan insanlar bundan narahatıq yaşaya bilərlər. Ona görə də əti ən azı 1 gün dincəldikdən sonra istehlak etmək faydalıdır. Saxlanma şəraiti və bişirmə üsulları ilə yanaşı, ətin istirahət etməməsi bəzi əlverişsiz vəziyyətlərə səbəb ola bilər. Belə ki, əti yaxşı və düzgün bişirməsək, orada çoxalan bakteriyalara görə qida zəhərlənməsi və ya istəmədiyimiz sağlamlıq problemi ilə qarşılaşa bilərik. Ətdən uzun müddətli istifadəni düşünürüksə, dərin dondurucularda mənfi 18 dərəcədə saxlanılmalıdır.

Ancaq qısa müddətdə istifadə olunacaqsa, mənfi 2 ilə 4 dərəcə arasında bir neçə gün saxlanıla bilər. “Tape qurd” dediyimiz qurd bağırsaq florasını pozur və arzuolunmaz nəticələrə səbəb ola bilər. Bu səbəblə tədbir görməkdə fayda var.

Ətləri manqalda, sobada və qaynadılmış üsullardan istifadə edərək bişirməyi məsləhət görürük. Yüksək yağlı və yüksək temperaturda bişmiş ətin zülal strukturu da pisləşir. Tərkibindəki vitamin dəyərləri də ölür. Yağda bişirilməsi məsləhət görülmür.

Səhər yeməyini yalnız qovurma ilə etməyi çox uyğun görmürük. Tövsiyəmiz budur ki, Qurban bayramı günlərində süfrələrdə standart pendir, zeytun, yumurta və digər məhsullar olsun, səhər yeməyini də həmişəki kimi eyni şəkildə yeyilsin.

### Dietoloq məsləhət bilir ki...

Qurban bayramında etibarlı nöqtələrdə satılan qurbanlara üstünlük verilməsi lazım olduğunu ifadə edən dietoloq Volkan Çiçəkdağ bayram günlərində təkcə ət deyil, şirniyyat istehlakının da artdığı barədə xəbərdarlıq edib, tövsiyələr verib. Bunlardan birincisi bildiyimiz etibarlı yerlərdən qurban kəsməyə üstünlük verməyin vacib olmasıdır.

Əgər insanın, ümumiyyətlə, qida istehlakında xroniki xəstəlikləri varsa, istər ət, istərsə də şirniyyat olsun, buna uyğun istehlak etməlidir. Bayram günlərində xüsusilə şirniyyatlar bir az çox ola bilər. Ziyarətə getdiyimiz yerdə şirniyyat verilir və təbii ki, ondan imtina etmirik. Təbii ki, imtina edə bilmərik, amma payın miqdarına diqqət yetirək. Şərbətli desertlərin porsiya ölçüsü daha vacibdir.

Südlü desertlərə müraciət etsək, daha faydalı olar. Maye ilə birlikdə tərəvəz istehlakına böyük diqqət yetirməliyik. Ətdən aldığımız dəmir və digər vitaminlərin orqanizmə daha tez inteqrasiyasını təmin edən lifli qidalar və tərəvəzlərdir.

Əgər manqalda ət bişiririksə, onu yalnız oda çox dəymədən istisini alacaq şəkildə bişirməyimiz, kömürlə təmas etdirməməyimiz vacibdir. Əks halda qida zəhərlənməsi ilə qarşılaşa bilərsiniz.

Ətin saxlanma şəraitini düzgün həyata keçirə bilməsək, o, məhv olar, mütləq buna diqqət yetirməliyik. Tutaq ki, dondurduq, ətdən istifadə edəcəyik, əridikdən sonra onu yenidən saxlamağa imkanımız olmayacaq. Biz əti yenidən dondurmağa meyl etdikdə onun strukturunu pozuruq və sağlamlıq baxımından problemli olur.

Qurban bayramında qida istehlakımız artacağı üçün idmana, gəzintilərə önəm verilməlidir. Ən azı yarım saat, 40 dəqiqə piyada getməyi təklif edirəm”, - deyə dietoloq bildirib.

**Tərcümə-Mətanət Məmmədova**

SAĞLAMLIQ

# Zəngəzur dəhlizinin açılması ən çox kimin işinə yarayacaq?



***“44 günlük Vətən müharibəsi yalnız Azərbaycan və Ermənistan arasında olan münasibətləri dövlətimizin xeyrinə həll etmədi eyni zamanda bölgədəki dövlətlər arasında olan münasibətlərə də bir yenilik gətirdi. Dünənə qədər işğalçı Ermənistan söz sahibi idisə, 44 günlük müharibə Ermənistanı bu hüquqdan məhrum etdi. Ermənistana havadarlıq edən dövlətlər də nə ona, nə də özlərinə kömək edə bildilər. Bu prosesin uğurla həll olunmasında qardaş Türkiyə Cümhuriyyəti və dost ölkə Pakistanın müstəsna xidmətləri oldu. Təbii ki, bu gün Azərbaycan öz tarixi torpaqlarının sahibidir”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.***

Onun sözlərinə görə, bu torpaqlarda azərbaycanlılarla yanaşı, qeyri-azərbaycanlılar, o cümlədən, ermənilər yaşayır: “Azərbaycan hakimiyyəti Ali Baş Komandan səviyyəsində Laçında olarkən həm Qarabağda yaşayan ermənilərə, həm də gecə-gündüz onlar üçün gözyaşı tökən dövlətlərə rəsmi olaraq bəyan etdi ki, Dağlıq Qarabağ problemi yoxdur və Qarabağla bağlı məsələlər yoluna qoyula bilir. Qarabağda yaşayan ermənilər də Azərbaycan vətəndaşıdır. Azərbaycan qanunlarını qəbul edirlərsə onların təhlükəsizliyinə təminat verilir. Lakin separatçı meyillərindən və silahdan əl çəkməyəcəklərsə, onların torpaqlarımızda yaşamaq hüququ yoxdur”.

Deputat sözlərinə davam edərək bildirib ki, əgər erməni Laçın dəhlizindən keçirsə, o zaman Naxçıvanda yaşayan azərbaycanlılar nə üçün Zəngəzur dəhlizindən istifadə edə bilməməlidir: “Azərbaycan Qarabağda yaşayan və Ermənistan Respublikasında olan ermənilərin bir-biri ilə iqtisadi, siyasi və ticarət əlaqələr yaratmaq üçün hər cür şərait yaradıbsa, bəs Ermənistan niyə Zəngəzur dəhlizini açmamalıdır?! Məntiqi olaraq Zəngəzur dəhlizinin açılması məcburidir. Ermənistan bununla bağlı heç bir bəhanə gətirə bilməz. Türkiyə dövlət başçısı Azərbaycandakı rəsmi səfərindən geri dönərkən bəyan etdi ki, Zəngəzur dəhlizinin açılmasına mane olan Ermənistan yox, İran İslam Respublikasıdır. Təbii ki, Azərbaycanda da bu problem ilə bağlı mühüm fikirlər var və bunlar heç kəsə sirr deyil. Görünür ki, buna mane olan, köməklik göstərən və neytral olan dövlətlər kimlərdir. Zəngəzur dəhlizinin açılması bölgə ilə bağlı olan həyati bir məsələdir. Ədalət naminə qeyd etmək lazımdır ki, bu dəhlizin açılmasından ən çox xeyir əldə edən Ermənistan olacaq. Bununla Ermənistan və Azərbaycan, o cümlədən, Türkiyə arasında səmimi münasibətlərin yaranması üçün bir şansdır. Ermənistan gərək bu şansı əldən verməsin”.

**Ləman Əlizadə**

***2,5 il əvvəl tərəflərin razılaşdığı Azərbaycan və Ermənistan arasında nəqliyyat və iqtisadi kommunikasiyaların bərpası mövzusunda Moskva, Bakı və İrəvan arasında müzakirələrin yeni mərhələsi təxminən bir aya yaxındır müşahidə olunur. Mayın 25-də üç ölkə liderlərinin Moskva görüşü olub. Mövzu təkcə Bakı və İrəvanın deyil, xüsusən də, vasitəçi kimi Moskvanın, eləcə də Türkiyənin diqqət mərkəzindədir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



# Rusiyalı ekspert: "Moskva, Bakı və Ankara İrəvanın oyunlarına sonadək səbr etməyəcək"

Bu arada Ermənistan tərəfi bir həftədən çoxdur ki, Naxçıvan istiqamətində Azərbaycan ordusunun mövqelərini atəşə tutmaqda davam edir ki, bu da nəqliyyat kommunikasiyalarının açılması prosesinə zərər vurur. Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov Moskva-Baku portalına vəziyyəti şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

- Bu məsələyə obyektiv baxsaq, Azərbaycan və Rusiya Ermənistandan tamamilə fərqli mövqelərdə, situasiyalarda çıxış edirlər. Ermənistan daxilində vəziyyət çox qeyri-müəyyəndir. Bununla belə, xarici siyasətində olduğu kimi, respublikanın elitası və respublika əhalisi arasında ölkənin gələcəyi, Azərbaycanla münasibətləri normallaşdırmaq üçün hansı siyasətin aparılmasının daha düzgün olacağı və onun indi də davam edib-etməyəcəyi barədə ümumi fikir yoxdur. Həmçinin, Ermənistanda siyasi və digər qərarların qəbulu üçün vahid sistem yoxdur. Nikol Paşinyan bəzən hərbi blokun nümayəndələrinin necə hərəkət edəcəyinə görə məsuliyyət daşımır və hərbi rəhbərlik separatçıların mövcudluğuna görə həmişə ərazidəki vəziyyətə kifayət qədər nəzarət edə bilmir. Ermənistanın baş naziri Bakı ilə münasibətlərin normallaşdırılması çərçivəsində konkret qərarlar qəbul edəndə radikalların necə davranacağını bilmir.

Ermənistanın gələcəyi ilə bağlı sual var, o, hara gedir- nəhayət, NATO və Aİ-yə, Qərbə doğru irəliləyirmi və onun eyni vaxtda iki kürsüdə oturması- Rusiya ilə Qərb arasında oynamaq üçün sonsuz cəhdləri nəyə gətirib çıxaracaq? Biz İrəvanın son dərəcə impulsiv hərəkətlərini çoxdan görmüşük- əvvəl bir istiqamətdə, sonra digər istiqamətdə.

Başqa bir məqam var ki, Paşinyan siyasi cəhətdən çətin vəziyyətdə olan ölkəsindən daha çox öz şəxsi gələcəyi ilə bağlı narahatdır. Ermənistanın baş naziri əmindir ki, əgər o, sülh müqaviləsini imzalasa, onda onun hakimiyyətdə qalması (və bəlkə də fiziki varlığı) sona çatacaq. O həm də ondan qorxur ki, bu yolla Ermənistanın İkinci Qarabağ müharibəsində məğlubiyyətini hüquqi cəhətdən möhkəmləndirəcək.

Bildiyiniz kimi, bu gün amerikapərəst qüvvələr Ermənistanı fəal şəkildə ABŞ, Avropa İttifaqı, NATO ilə yaxınlaşmağa doğru aparır. Ermənistanı Avrasiya inteqrasiyası istiqamətində geri döndərməyə çalışan rusiyapərəst qüvvələr də var.

Paşinyanın indiki mövqeyi ikibaşlı çək-çevirdir. Nəticə etibarı ilə belə bir mövqe onun ya biri, ya da digəri üçün lazımsız olmasına gətirib çıxara bilər. Bu isə Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə, üçtərəfli sazişlərin həyata keçirilməsinə, Ermənistan-Rusiya münasibətlərinə çox təsir edir. Bu amillərlə bağlı Nikol Paşinyan İrəvanın üçtərəfli bəyanatlarının icrasını hər hansı vasitə ilə ləngitməkdə davam edir.

Paşinyan danışıqlar aparmaq, görüşmək, vədlər vermək üçün lazımdır, amma yekun qərarlar qəbul etmək üçün deyil. Ona görə də Ermənistanın baş naziri bu gün ənənəvi taktikası çərçivəsində hər hansı bir sənəd imzalamır. Mayın 25-də Kremldə Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında əldə olunan razılaşmalar nəticəsində belə görünürdü ki, tərəflər dəmir yolu ilə bağlı yeni sənəd imzalamağa üzrədirlər. Və sonda yenə heç nə. Demək olar ki, bir aya yaxın vaxt keçib, İrəvanla Bakı arasında prosesin necə işləməli olduğunun qavranılmasında bəzi müntəzəm "çətinliklər" ortaya çıxır. Və paralel olaraq, ərazidə- məhz Azərbaycanla Ermənistan arasında potensial dəmir yolunun çəkilişi zonasında- Naxçıvan bölgəsində gərginlik artır. Bu baxımdan, Laçın yolunun Ermənistan tərəfindən atəşə tutulması da göstəricidir.

Rusiya baş nazirinin müavini Overçukun Ermənistanla Azərbaycan arasında nəqliyyat kommunikasiyalarının açılması məsələsində əsas çətinliklərdən birinin tərəflərin bir-birinə etimadsızlıq olması ilə bağlı tezisini şərh edərkən demək olar ki, münasibətlərin normallaşması ilə bağlı ideal mənzərə yaranıb. Azərbaycan münasibətləri və nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması Paşinyanın siyasi və hətta fiziki gələcəyi üçün qorxu faktoru olmasaydı, radikalların hərəkətləri heç bir problem olmazdı. Təsdiq kimi Laçın yolundakı vəziyyəti təsəvvür etmək olar. Azərbaycanlılarla ermənilərin onilliklər boyu (və hətta daha çox) ən şiddətli düşmənçiliyinə baxmayaraq, erməni əhalisi Laçın keçid məntəqəsindən tam sakit, problemsiz keçərkən müntəzəm olaraq video kadrlar yayılır. Hər şey sakitdir, insancasına, heç kim qarşılıqlı iddialarla çıxış etmir, bir-birinə qarşı kobudluq etmir, təxribatlar təşkil etmir, heç kim heç kimə sataşmır. Azərbaycan sərhədçiləri, gömrükçüləri özlərini çox nəzakətli aparırlar. Hər şey sakit və problemsizdir. Yəni bu, azərbaycanlılarla ermənilərin normal təmaslarının nümunəsidir. Bu isə azərbaycanlılarla ermənilər arasında sülhün, normal münasibətlərin mümkünlüyünün belə müsbət sübutudur. Laçın dəhlizinin bu gün necə fəaliyyət göstərməsi göstərir ki, bütün bu məsələləri iki il əvvəl həll etmək olardı.



İlk üçtərəfli bəyanatın imzalanasından sonra 2,5 ildir ki, bəzi məqamlarda - məsələn, Zəngəzur dəhlizinin açılması məsələsində heç bir irəliləyiş yoxdur. Bu dəhlizin öz hissəsini ancaq Azərbaycan tərəfi tikir. Və bu dəhlizin həyata keçirilməsi Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı üçtərəfli bəyanatda açıqlanıb. "Qorxunc azərbaycanlılar Laçın yolunda erməniləri öldürəcəklər" tezisləri siyasi və informasiya effektinə yönəlmiş qorxu hekayələridir.

Azərbaycan erməniləri "öldürmək" istəsəydi, bunu 2020-ci ildə edərdi. Amma o, müdrikcəsinə uzaqlara baxan, bütün siyasi riskləri dəyərləndirən İlham Əliyevin xoş niyyəti ilə bunu etməyib. 2020-ci ildə tökülən qan dayandırıldı. Obyektiv olaraq əməliyyat davam etsəydi, bütün məsələlər çoxdan öz həllini tapardı. Əvvəllər Ermənistan tərəfindən işğal edilmiş ərazi Azərbaycanın nəzarətinə qaytarılacaqdı. Bu ərazidə artıq separatçılar olmayacaqdı. Ermənistan Silahlı Qüvvələri olmayacaqdı. Azərbaycan özü üçün çətin, lakin diplomatik yol seçib. O, sülhə diqqət edərək və məqsədinə çatacağına qeyd-şərtsiz inamla seçim etdi. Və əminəm ki, uğur olacaq.

Ona görə də biz etimaddan danışanda- danışıqların aparılması və imzalanmış bəyanatların icrası baxımından- bunu bütün tərəflər, o cümlədən Ermənistan tərəfi də təsdiq etməlidir.

Bayaq qeyd etdiyim kimi, bu, sırf Avropa formuludur- nəyisə imzalamaq, sonra isə artıq imzaladığımız şeyi necə həyata keçirəcəyimizlə bağlı sonsuz danışıqlar aparmaq. Avropa İttifaqı bu formulun beynəlxalq münasibətlərdə çox fəal şəkildə təbliğini aparır. Hazırda danışıqların necə aparılması ilə bağlı əsasən Aİ təlimatlarına arxalanan Ermənistan belə bir ssenarini həyata keçirir.

Əgər Ermənistanın siyasi iradəsi olsaydı, hər şey çoxdan Azərbaycanla münasibətlərin normallaşdırılmasına dair sazişlərin bəndlərinin yerinə yetirilməsinin xeyrinə həll olunardı.

Bütövlükdə Ermənistanda sadə insanların heç bir siyasi çəkişməyə ehtiyacı yoxdur. Onlar yalnız sülh içində yaşamaq və yaxşı yaşamaq istəyirlər.

Azərbaycanda əhali Ermənistanın qurbanı olan xalq olmasına baxmayaraq, rəsmi Bakının siyasəti nəticəsində sülhə hazırdır, erməni əhalisi ilə təmaslara hazırdır. Azərbaycan müharibənin qalibi kimi hər zaman sülhə hazır olduğunu nümayiş etdirir. Və bu son dərəcə vacib amildir.

Aydındır ki, iki xalq arasında tarixi düşmənçiliyin mövcud olduğu, hər iki xalqın onilliklər ərzində münaqişənin olduğu bir şəraitdə əhalinin təmaslarında həmişə müəyyən "səhvlər" ola bilər. Heç kim bundan sığortalanmayıb. Amma mən şübhə etmirəm ki, Azərbaycan tərəfi erməni əhalisinin təhlükəsiz hərəkəti üçün hər şeyi edəcək. Çünki sülhün təşəbbüskarı məhz Azərbaycandır və rəsmi Bakı ermənilərin də təhlükəsizliyi üçün hər şeyi edəcək. Bu, dövlət siyasətidir.

Bunu rəsmi Bakının Qarabağın erməni icmasına danışıqlar üçün təklifləri də sübut edir. Yəni, 2020-ci ildə bütövlükdə bütün məsələləri güc yolu ilə həll etmək imkanı olan Azərbaycan bunu etmir, daima məsələləri diplomatiya yolu ilə həll etməyə çalışır. Ermənistanın qətiyyətsiz və bəzən konkret olaraq təxribat xarakterli siyasəti fonunda inanılmaz səbir nümayiş etdirir.

Ermənistan silahlı qüvvələrinin, erməni birləşmələrinin çıxarılması da üçtərəfli bəyanatın əsas məqamlarından biri kimi qeydə alınsa da, həyata keçirilmir.

Azərbaycan Qarabağın erməni əhalisinə də xoşməramlılıq nümayiş etdirdi. Bir sıra tamamlayıcı tədbirlər həyata keçirilib. Amma separatçıların təzyiqi nəticəsində Qarabağın erməni icması ilə danışıqlar aparmaq cəhdi, azərbaycanlıların "şər" olması tarixi düşüncəsi, uzunmüddətli siyasət hələ də problemlərlə üzləşir. Azərbaycan səmimi qəlbdən Qarabağın erməni əhalisini çoxmillətli Azərbaycan ailəsinə inteqrasiya etməyə dəvət edir.

Yeri gəlmişkən, başqa bir maraqlı məqam. Üçtərəfli bəyanatda bildirilir ki, nəqliyyat dəhlizinin təhlükəsizliyini Rusiya FSB təmin edəcək. Azərbaycan tərəfi bu yaxınlarda Bakının açıqladığı kimi bunu dəstəkləyir. Ermənistanın etdiyi budur ki, bəyan etməyə başlayır ki, əgər Bakı təhlükəsizliyi təmin edən Rusiya strukturlarının Ermənistanda olmasında israr edərsə, İrəvanın təhlükəsizlik üçün üçüncü ölkəni cəlb etmək hüququ var. Amma bu razılaşmada göstərilməyib.

Bu, üzr istəyirəm, çox gülməlidir - nə Aİİ, nə də KTMT-nin üzvü olmayan Azərbaycan sadəcə olaraq imzalanmış üçtərəfli sənəd əsasında razılaşır ki, Rusiyanın təhlükəsizlik strukturları nəqliyyat kommunikasiyalarına nəzarəti təmin etməlidir. Ermənistan bu strukturların üzvü olduğu halda deyir: ”Yox, yox, Rusiya FSB yolmasın, biz NATO-nu dəvət edək, qoy təhlükəsizliyi təmin etsin”.

Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyalarının açılması məsələsində Ankaranın yeni aktivləşməsinə gəlincə, Ərdoğanın Türkiyədə keçirilən prezident seçkilərində qalib gəlməsindən sonra mövzu yenidən son dərəcə aktuallaşıb. Eləcə də Moskva üçün. Hər iki ölkə kommunikasiyaların açılmasında maraqlıdır.

Nəticə etibarı ilə əsas tezis dəyişməz olaraq qalır- əgər Ermənistan bu və ya digər səbəbdən nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasını həyata keçirmək istəmirsə, deməli, yalnız özünə pislik edir. Əsas maraqlı tərəflər öz milli maraqlarına ziyan vuran blokun qalmasını istəyən Ermənistanın belə "oyunlarına" dözməyəcəklər.

***Tərcümə - Elçin Bayramlı***

Səs

22 iyun
2023-cü il

# “Qəbələ”, ”Sabah” və ”Neftçi”nin rəqibləri açıqlandı




Dünən futbol üzrə UEFA Konfrans Liqasının 2-ci təsnifat mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində keçirilən tədbirdə ”Neftçi”, ”Qəbələ” və ”Sabah”ın rəqibləri bəlli olub. ”Neftçi” səpələnmişlər, ”Sabah” və ”Qəbələ” isə səpələnməmişlər sırasında yer alıb. KL-də yarışacaq 3 Azərbaycan klubu arasında daha yüksək reytinqə malik ”Neftçi” ”səpələnmişlər” səpətində yer alıb.

Püşkün nəticəsinə əsasən, ”Neftçi” ”Jelezniçar” (Bosniya və Herseqovina) - ”Dinamo” (Minsk, Belarus) cütünün qalibi ilə qarşılaşacaq. ”Qəbələ” ”Omoniya”nın (Kipr), “Makedoniya” (Şimali Makedoniya) – RFŞ (Latviya) cütünün qalibi isə ”Sabah”ın rəqibi olub. Qeyd edək ki, 2-ci təsnifat mərhələsinin ilk oyunları iyulun 27-də, cavab görüşləri isə avqustun 3-də keçiriləcək.

# Uşaqlara qışqırmayın, onları anlayın

## *Uşaqlara kobud insanlarla ünsiyyət qaydalarını öyrətmək vacibdir*



***Davranışından asılı olmayaraq uşaqlar, böyüklərin - müəllimlərin, qonşuların, valideynlərinin və s. kobudluğu ilə qarşılaşa bilər. Uşaqlar özlərindən böyük olanların nəzakətdən kənar davranışlarına necə reaksiya verməlidirlər? Onlara qışqıran, kobudluq edən böyüklər bunu hansı səbəbdən edir? Bu barədə Gazeta.Ru-ya psixoloqlar maraqlı rəylər verib.***

Psixoloq Yuliya Tokarçuk: “Təəssüf ki, gündəlik həyatda insan tez-tez digər insanların kobudluğu və nəzakətsizliyi ilə üzləşməli olur. Əksər vaxtlar böyüklər belə davranış əks etdirə bilirlər, hədəfdə ən yaxın adamlar olur. Böyüklər bəzən alışmış, öyrəşmiş ola bilirlər, amma uşaqlar buna hazır deyillər. Təhsil prosesində böyüklərin səlahiyyəti həmişə mühüm rol oynayır, buna görə bir çox uşaqlar qışqıran müəllim və ya valideyn ilə qarşılaşa bilirlər.



Belə vəziyyətlərin qaçılmazlığını başa düşərək, uşaqlara başa salmaq lazımdır ki, ona hansı hallarda, nə kimi davranış olarsa buna etiraz etsin. Məsələn, uşaqlar bilməlidir ki, ona əl qaldıran, nalayiq ifadələr işlədən böyüklərə qarşı məsafəli davransın. Birlikdə kitab oxuyarkən, izlədiyiniz bir filmi və ya sadəcə, həyatınızdakı situasiyaları müzakirə edərkən, uşağınıza başa sala bilərsiniz ki, hətta böyüklər də səhv edə bilər. Bir insanla qarşılıqlı əlaqə qurmaq bacarığı uşaq üçün ünsiyyətin mühüm əsasıdır. Hər hansı bir insandan - həkimdən, qonşudan, mağaza işçisindən sizə ünvanlanan kobud və ya nəzakətsiz ifadələri eşitdikdən sonra ona kobudluqla cavab vermək lazım deyil, ən yaxşısı təmkinli davranmaq və mümkünsə mədəni formada qarşılıq bildirmək övladınıza öyrədəcəyiniz ən yaxşı davranışdır”.





Klinik psixoloq Anastasiya Savina: “Kobud insanlarla ünsiyyət qurmaq nəinki uşaqlar, böyüklər üçün də asan deyil. Yetkinlərin ilk etdiyi səhv də uşağı belə insanlardan təcrid etməkdir. Bu, doğru deyil. Bizim həmişə kiminlə ünsiyyət quracağımızı, kiminlə qurmayacağımızı seçmək imkanımız olmur. Gələcəkdə uşaq oxşar vəziyyətlərlə qarşılaşarsa, kobud insanlarla ünsiyyət qurmalı olarsa necə davranacağını bilməyəcək. Birincisi, uşağa izah etmək lazımdır ki, biz bəzi zamanlarda bir insanın niyə bizə qarşı kobud davrandığını başa düşməyə bilərik. Həmişə yaxşı davranan, yaxşı ünsiyyət quran insanlar olmaya bilər, bəzi hallarda kobud, aqressiv insanla məcburi ünsiyyət qura bilərik. Ona başa salmalıyıq ki, o insanın xarakteri və ya düşdüyü mühit onu belə edir, uşağın bunda heç bir günahı yoxdur.

İkincisi, yaş saxtakarlıq, fırıldaqçılıq, aqressiv davranış və ya kobudluq üçün bəhanə deyil. Uşaqlar erkən yaşlardan şəxsi sərhədlərin formalaşmasına diqqət yetirməyi öyrənməlidir. Uşaq başa düşməlidir ki, onun hansı haqları var və özünü necə qorumalıdır. Əlbəttə ki, əvvəlcə bir yetkin insanın köməyinə ehtiyac duyacaq, lakin bu, şəxsi sərhədlər mövzusunda maarifləndirici söhbətlərə mane olmamalıdır.

Üçüncüsü, seçimlərin nə olduğunu müzakirə etməkdir. Biz, digər insanların pis davranışlarının qarşısını ala bilmərik, lakin reaksiyalarımızı idarə edə bilərik. Seçimlərdən biri kobudluğa qəzəbli cavab vermək əvəzinə xeyirxahlıq göstərməkdir. Bu, kobudluğun pis aurasını qıra, qarşı tərəfi yumşalda bilər. Bu seçim işə yaramırsa, uşaq qarşılaşdığı vəziyyətdən onun üçün məqbul olan digər variantı seçərək ətrafından yardım istəyəcək.

Uşaqlara empatiya hissini öyrətmək onlara ən vacib sosial bacarıqlardan birini öyrətmək deməkdir. Uşağa başa salın ki, qarşıdakı insan niyə bu davranışı seçib. O anlamalıdır ki, böyük insanlar anadangəlmə belə kobud, aqressiv olmurlar, ola bilsin ki, o, pis bir gün keçirir, ola bilsin ya ailəsində, ya da işində çətin vəziyyət yaşayır”.

Ailə və klinik psixoloq, psixoanalitik Vera Zolotıx: “Uşaqlar onlara pis davranıldığını böyüklərin sayəsində anlamalıdır. Böyüklər onlara başa salmalıdır ki, pis davranan insan əslində doğru davranmayıb və uşaq bu davranışa layiq deyil. Belə olmasa uşaq özünə qarşı kobudluğa, zorakılığa normal baxacaq, çünki o hələ nəyin yaxşı, nəyin pis olduğunu bilmir. Normal vəziyyətin sakitlik, mülayimlik olduğunu anlayan uşaq onunla pis davranan hər hansı bir insana qarşı məsafəli davranacaq.

Bəzən uşaq böyüklərin onlara qışqırmasına, əsəbləşməsinə bir əsas tapa bilmir, çünki özünə normal gələn hər hansı bir davranışın əslində normal olmadığını anlamır. Ona görə özünə qarşı kobudluq edən böyüyə “mənə niyə qışqırırsan?” kimi sual da verə bilərlər. Bu zaman böyüklər düşünməyə məcbur olur, doğru davranmadıqlarını etiraf etməli olurlar və aramla, səbrlə səbəbini anlatmalıdır. Uşağın, böyüklərin kobudluğunun və nəzakətsizliyinin çox vaxt uşaqla əlaqəli olmadığını, özünün buna səbəb olmadığını bilməsi vacibdir. Əks halda, özünü həmişə günahkar kimi hiss edəcək”.

***Lalə Mehralı***

# Tıxac insan psixologiyasına necə təsir edir?

***“Əlbəttə ki, tıxac insan psixologiyasına təsir edir. Son zamanlar insanlarda olan səbirsizlik, kəmhövsələlik gündəlik həyatımızın bir parçası olan tıxaclarda da özünü göstərir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib.***


© Alamy

Onun sözlərinə görə, tıxac əsasən böyük şəhərlərdə olduğuna görə daha çox şəhər əhalisi psixoloji olaraq gərginlik keçirə bilir: “Bildiyiniz kimi, son vaxtlar insanların iş fəaliyyətinin artması və yaxud gündə bir neçə işlə məşğul olmaq, eyni zamanda bu müddət ərzində şəxsi problemlərini həll etmək cəhdi onlarda stress yaradır. Bu da tıxac zamanı özünü büruzə verir. Daha çox sürücülük xidməti ilə məşğul olan insanlar bundan əziyyət çəkirlər. Çünki onlar gün ərzində bir neçə saat yolda olmağa məcburdur və belə hallar onlarda gərginliyə səbəb ola bilir. Ümumiyyətlə, tıxac nəinki avtomobil idarə edən, hətta etməyən insanlar üçün də gərginlik yaradan amillərdəndir”.

***Ləman Əlizadə***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**